REGION PRESS

№05 (180) 13.03.2015

Qəzet 2008-ci il martın 15-dən çıxır

İctimai qəzet

“რეგიონ პრესი” საზოგადოებრივი გაზეთი

www.amm.ge

*Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi Sizi qarşıdan gələn Bahar bayramı - Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, əmin-amanlıq, xoş güzəran, can sağlığı və ailə səadəti arzulayır!*




# Batumidə Gürcüstan-Türkiyə-Azərbaycan biznes forumu keçirilib

***“Gürcüstanda həqiqətən ədalətli, şəffaf və təhlükəsiz investisiya mühiti yaradılıb və ölkəmizdə investisiya yatırımının hər bir senti dövlət tərəfindən qanunla müdafiə olunacaq”.***

Bu sözləri Gürcüstanın baş naziri İrakli Qaribaşvili Batumidə Azərbaycan İqtisadiyyat və Sənaye Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə keçirilən Gürcüstan-Türkiyə-Azərbaycan biznes forumunda bildirib.




Baş nazir qeyd edib ki, hökumət ölkənin iqtisadiyyatının inkişaf etdirilməsinə qayğı ilə yanaşacaq və biznesə dəstək verəcək.

İ. Qaribaşvili çıxışında son illər Gürcüstan-Türkiyə və Gürcüstan-Azərbaycan iqtisadi əlaqələrinin getdikcə inkişaf edərək ən məhsuldar bir dövrə gəlib çatdığını bildirib: "Mən əminəm ki, bu ənənə davam edəcək və bizim ölkələrin əməkdaşlığı daha maraqlı və uğurlu layihələrin həyata keçirilməsinə gətirib çıxardacaq. Gürcüstan, Azərbaycan və Türkiyənin potensialı var və biz Şərq ilə Qərb arasında, həmçinin regionda keyfiyyətli iqtisadi əlaqələrdə əsas və əhəmiyyətli oyunçu olacağıq".

Forum çərçivəsində Gürcüstanın baş naziri Türkiyə və Azərbaycan iqtisadiyyat nazirləri ilə görüşüb, onlara biznes, iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsinə görə təşəkkür edib.

# Gürcüstanda Azərbaycan dilində radio fəaliyyətə başlayıb

***Gürcüstanda ilk dəfə olaraq, gürcü radiosu Azərbaycan dilində - Azərbaycan-Gürcüstan FM (AGFM) yayıma başlayıb.***

Azərbaycanlıların yığcam şəkildə yaşadıqları Marneuli, Bolnisi, Dmanisi və Tetrisxaroda (FM 101.5), Rustavi, Qardabani və Tbilisidə (FM 100.6) yayımlanan radionun əsas məqsədi Gürcüstan vətəndaşı olan etnik azərbaycanlıların gürcü cəmiyyətinə inteqrasiyasına kömək etmək, onları ölkədə və Azərbaycanda, eləcə də dünyada baş verən hadisələrlə bağlı xəbərlərlə təmin etməkdir.



Radionu "unistream.tv" internet ünvanından da dinləmək olar.

Hər gün 24 saat efirdə olan radioda səhər saat 09:00-dan başlayaraq üç saatdan bir altı dəfə xəbərlər yayımlanır. Qalan vaxtlarda isə “Sənət arenası”, “Dialoq zamanı”, “Mən vətəndaşam”, “Kənd təsərrüfatı”, “Sağlamlıq”, “Zəng vurun, sizi dinləyirik”, “Biznes bu gün” adlı maarifləndirici, musiqili, əyləncəli verilişlər yayımlanır.

# Gürcüstanın cəzaçəkmə müəssisələrindəki məhbuslara ana dilində qəzetlər veriləcək



***Gürcüstanın cəzaçəkmə müəssisələrində cəza çəkən etnik məhbuslara Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət Nazirliyinin təşkilatçılığı ilə ana dillərində nəşr olunan qəzetlər veriləcək.***

Bu təşəbbüs Gürcüstanın Cəzaçəkmə və Probasiya Məsələləri üzrə Nazirliyi ilə razılaşdırılıb. Məlumata görə, Marneulidəki Azərbaycanlıların Mədəniyyət Mərkəzinin nəşri olan "RegionPress", həmçinin Azərbaycandilli “Gürcüstan” və erməni dilli “Vrastan” (“Gürcüstan”) qəzetləri həftədə bir dəfə etnik məhbuslara çatdırılacaq.

Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət Nazirliyinin etnik azlıqların məsələləri üzrə müşaviri Zaur Darğallı məhbuslara ana dilində mətbuat nümunələrinin çatdırılmasının həbsxanalarda etnik məhbusların ölkədə baş verən hadisələr haqqında məlumatlandırılması məqsədi daşıdığını bildirib “Məhbuslarla bağlı bir çox planımız var. Onların həbsxanalarda məşğulluğunu artırmaq və cəmiyyətə inteqrasiyası üçün müxtəlif proqramlar da düşünmüşük. Biz məhbuslar üçün Novruz bayramı proqramı və menyu da hazırlamışıq” - deyə o qeyd edib.

**“Sözün Zəlimxan zirvəsi” kitabının təqdimatı keçirildi**




Səh.2-də

**Turacın uğur kitabının sərlövhəsi**

*(activus)*



İbrahimxəlil

Səh.5-də

**I Avropa Oyunları medallarının təqdimat mərasimi keçirilib**



Səh.7-də

**Hacı Rizvan İsmayılzadə: *“Rəssam rənglərlə şeir yazan bəstəkardır”***



Binnət Əlioğlu

Səh.12-də

# "Sözün Zəlimxan zirvəsi" kitabının təqdimatı keçirildi






Azərbaycanlıların Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Marneulidəki "AtaHolding Center"də Azərbaycan Aşıqlar Birliyinin katibi, tanınmış tədqiqatçı-publisist, "Ozan dünyası" jurnalının baş redaktoru Musa Nəbioğlunun "Sözün Zəlimxan zirvəsi" adlı kitabının təqdimatı keçirildi. Tədbiri açan Azərbaycanlıların Mədəniyyət Mərkəzinin idarə heyətinin sədri Fazil Həsənov xalq şairi Zəlimxan Yaqub haqqında bir çox kitab yazıldığını, lakin Musa Nəbioğlunun bu monoqrafiyasının şair haqqında olduqca böyük əhəmiyyət daşıdığını toplaşanların nəzərinə çatdırdı.

Azərbaycanın xalq şairi Zəlimxan Yaqub Bakıdan telefon əlaqəsi yaradaraq onun yaradıcılığına diqqət ayırdıqları, bu kitaba verdikləri önəmə görə minnətdarlığını bildirdi və qarşıdan gələn Novruz bayramı münasibətilə toplaşanları ürəkdən təbrik etdi. Giriş və 13 bölümdən ibarət olan kitabın müəllifi Musa Nəbioğlu son iki ayda şairin 3 kitabının çap olunduğunu və bu kitabın da onun ad günündə - 21 yanvarda işıq üzü gördüyünü bildirdi. O, şairin 13 cildliyindən sonra "Dünya çiçək, insan oğlu arıdır" adlı kitabının da bu günlərdə işıq üzü görəcəyini vurğuladı. M.Nəbioğlu "Zəlimxan Yaqub ədəbi düşüncədə" adlı 4 cildlik kitabın çap olunacağını və onun artıq 2 cildinin işıq üzü gördüyünü də diqqətə çatdırdı. Daha sonra yazıçı-publisist Əli Abbas, tanınmış şair, bir çox mükafatlar laureatı Nizami Saraçlı, Marneuli təhsil ehtiyatları mərkəzinin rəhbəri Ruslan Hacıyev, görkəmli tədqiqatçı-tərcüməçi Mirzə Məmmədoğlu, Gürcüstan parlamentinin sabiq deputatları Ramiz Bəkirov və Hidayət Hüseynli, Gürcüstan-Ukrayna Beynəlxalq Elmi-Tədris İnstitutunun prorektoru Mahmud Hacıxəlilov, şair Səyavuş Uyğun, ziyalı Suddarxan Kazımov, Bolnisi rayonundakı Kəpənəkçi ümumi məktəbinin direktoru Zakir Məmmədov, aşıq Xıdır çıxış edərək şeirləri dillər əzbərinə çevrilmiş xalq şairinin yaradıcılığını müxtəlif aspektlərdən təhlil etdilər, onunla bağlı xatirələrinin danışdılar, belə bir monoqrafiyanı vaxtında ərsəyə gətirdiyi üçün Musa Nəbioğluna təşəkkür etdilər. Marneuli rayonundakı Sadaxlı 2 saylı məktəbin şagirdi Canan Məmmədova, Bolnisi rayonundakı Kəpənəkçi ümumi məktəbin



şagirdi Bahar Ruqayeva və ziyalı Ziyadxan Sərdarovun oğlu Qalib Sərdarov, şair-publisist Əli Abbasın nəvəsi kiçik Əli şairin şeirlərini səsləndirdilər.

Sonda kitabın müəllifi Musa Nəbioğlu və şairin qardaşı Çingiz Yaqubov Zəlimxan Yaqub yaradıcılığına və onun barəsində yazılmış "Sözün Zəlimxan zirvəsi" adlı monoqrafiyaya verdikləri dəyərə görə toplaşanlara minnətdarlıqların bildirdilər.

Xatırladırıq ki, "Sözün Zəlimxan zirvəsi" kitabının redaktoru və ön sözün müəllifi filologiya elmləri doktoru professor Qəzənfər Paşayevdir.

**"RegionPress"**

**Bahar bayramı yaxınlaşır**

# Kəpənəkçidə Yel çərşənbəsi qeyd olundu

Novruzun üçüncü çərşənbəsi olan Yel çərşənbəsi Bolnisi rayonunun Kəpənəkçi kəndində xüsusi şadyanalıqla qeyd olunub. Azərbaycan İctimai Televiziyasının Gürcüstan üzrə müxbir bürosunun operatoru Rəhim (Maksim) Talıbovun təşkilatçılığı ilə baş tutan bayram şənliyində yerli sakinlərlə yanaşı Bolnisi rayon icra hakimiyyətinin nümayəndələri, din xadimləri, Azərbaycan Aşıqlar Birliyinin katibi Musa Nəbioğlu və digər şəxslər iştirak ediblər. Dağların əhatəsində, musiqi sədaları altında gənclərin cıdır yarışları və tonqal ətrafında keçirilən bayram şənliyi unudulmaz hadisəyə çevrilib.



**RegionPress**

## Sadaxlıda azərbaycanlı şagirdin erməni sürücü tərəfindən vurulması ilə bağlı etiraz aksiyası keçirilib

***Gürcüstanın azərbaycanlıların yığcam yaşadığı sərhədyanı Sadaxlı kəndindəki 1 saylı orta məktəbin qarşısında müəllim və şagird kollektivinin, kənd sakinlərinin iştirakı ilə etiraz aksiyası keçirilib.***

Aksiyada martın 10-da Sadaxlıda 4-cü sinif şagirdinin Ermənistan dövlət nömrə nişanlı avtomobil tərəfindən vurulması faktı barədə cinayət işi qaldırılması tələb edilib. Sakinlər magistral yolda avtomobillərin sürət həddini aşmasının qarşısını almaq üçün sürücüləri sürəti azaltmağa məcbur edəcək maneələr yaradılmasını və yol kənarlarına videokamera quraşdırılmasını zəruri saydıqlarını bildiriblər. Marneuli Bələdiyyəsinin sədri Nəbi Abdullayev əhali ilə söhbətində bu ayın axırınadək magistral yolda müvafiq işlərin aparılacağını söyləyib.

N. Abdullayev açıqlamasında hadisənin 10-OT-050 dövlət nömrə nişanlı "Opel" markalı avtomobilin sürücüsü olan Samvel adlı Ermənistan vətəndaşı tərəfindən törədildiyini açıqlayıb: "Hazırda hadisə ilə bağlı cinayət işi qaldırılıb. Cinayət törədən şəxs Gürcüstan qanunları ilə cəzasını alacaq. Magistral yola gəlincə, deyə bilərəm ki, yola nişanlar və maneələr qoyulması barədə tender elan olunub və ayın axırınadək yolda videokameralar, bir neçə yerdə yol nişanları və maşınların sürətini azaltmaq üçün maneələr qoyulması tezləşdiriləcək. Dövlət yol patrul xidməti isə magistral yol boyu nəzarəti gücləndirəcək".



Qeyd edək ki, martın 10-da saat 17:30 radələrində Sadaxlıda Ermənistan vətəndaşının idarə etdiyi avtomobil 4-cü sinif şagirdi, 10 yaşlı Əliyev Əli Əbülfət oğlunu vurub və məktəbli hadisə yerində keçinib.

**Nizami Məmmədzadə**

# Fermerlərin 2015-ci il yaz əkin işlərinə dəstək layihəsi

***"Kiçik torpaq sahəsinə malik fermerlərin 2015-ci il yaz əkin işlərinə dəstək layihəsi" çərçivəsində Şərqi Gürcüstanda, xüsusən də Kvemo Kartli, Kaxeti və Şida Kartlidə şumlama işlərinə başlandı.***

"Kiçik torpaq sahəsinə malik fermerlərin 2015-ci il yaz əkin işlərinə dəstək layihəsi" çərçivəsində verilən məlumata görə bu yardımdan Marneuli bələdiyyəsində 27 mindən çox benefisiar yararlanacaq. Kvemo Kartli miqyasında isə cəmi 91 mindən çox benefisiar, buradan 50 805 nəfər fermer şumlama kartından istifadə edir.

"Kiçik torpaq sahəsinə malik fermerlərin 2015-ci il yaz əkin işlərinə dəstək layihəsi"ndə bu il 80 000 fermer iştirak edəcək və layihənin büdcəsi 50 milyon larini təşkil edir.



Hakimiyyətin təşəbbüsü ilə, Kənd Təsərrüfatı Nazirliyi və kənd təsərrüfatı layihələrinin idarəçiliyini koordinasiya agentliyi yaz işlərinə dəstək layihəsinə 2013-cü ildə başlayıb. Bu il üçillik layihənin sonuncu mərhələsidir. Ötən illərdən fərqli olaraq hazırda fermerlər yardımı fərqli şəkildə alırlar.

*•0,25 ha-dan 1,25 ha-dək torpaq sahəsinə malik benefisiarlar yalnız şumlama kartından 1 hektara 140 lari alacaqlar;*

*•0, 25 ha-dək torpaq sahəsi olan fermerlər bu il 50 larilik aqro kartdan istifadə edəcəklər;*

*•0,25 ha-dan 1,25 ha-dək torpaq sahəsini çoxillik məhsulları əkmək üçün istifadə edənlər 1 hektara 140 larilik kənd təsərrüfatı avadanlıqlarından bəhrələnəcəklər;*

*•"Kiçik torpaq sahəsinə malik fermerlərin 2015-ci il yaz əkin işlərinə dəstək layihəsi" fevralda başlayıb və dekabrın 1-də sona çatacaq.*

# "Professor" Marneulidə

Marneulidə yeni açılmış "Professor" klinikası reproduktiv, artım yönlü klinikadır. Klinika Marneuli sakinlərinə sonsuzluq, IVF ön müayinələri, ozon terapiyası, fizioprosedurlar, palçıq ilə müalicə, kimyaterapiya, planlı ambulatorik müayinələr və s.təklif edir.



"Qeyd etmək lazımdır ki, bizim klinikada yüksək ixtisaslı, güvənli mütəxəssislər bələdiyyənin sakinlərinə xidmət edəcəklər. Mütəxəssislər klinikada mövcud müasir avadanlıqlar vasitəsi ilə əhaliyə Tbilisiyə getmədən yerində yardımçı olacaqlar" deyə klinikanın baş həkimi Nino İmerlişvili qeyd etdi.

# Gürcüstan parlamentinin azərbaycanlı deputatları Marneulidə əhali ilə görüş keçiriblər

***Marneulidəki Mülki Məşğulluq Mərkəzində (USAİD) keçirilən görüşdə "Gürcü arzusu"nun üzvü Mahir Dərziyevlə Vahid Milli Hərakat partiyasının üzvü Azər Süleymanov hesabat xarakterli çıxış ediblər.***

M. Dərziyev Gürcüstanda milli azlıqların təhsili ilə bağlı hökumətin qəbul etdiyi 1+4 proqramına dair fikirlərini açıqlayıb. O, milli azlıq nümayəndələrinin ali məktəblərə qəbulu zamanı güzəştli şərtlərin ləğv edilməsinə, habelə Azərbaycan dilli məktəblərin 1-ci sinifində ana dilinin öyrədilməsinə və yuxarı siniflərdə isə bu dilin tədrisinin saxlanılmasına, digər fənlərin isə gürcü dilində tədrisinə tərəfdar olduğunu bildirib. Azər Süleymanov isə Azərbaycan dilli məktəblərdə tədrisin Azərbaycan dilində aparılmasına, gürcü dilinin isə daha yaxşı tədris olunmasına tərəfdar çıxıb.



Sonda görüş iştirakçılarının məktəblərdə kadr çatışmamazlığı, evlərin dövlət qeydiyyatına alınması, sənədləşmə zamanı adlarda buraxılan səhvlərlə bağlı suallarına cavablar verilib.

Bildiririk ki, tədbirdə QHT üzvləri, ictimaiyyətin nümayəndələri, müəllimlər, gənclər, partiyaların təmsilçiləri və jurnalistlər iştirak ediblər.

**RegionPress**

# Gürcü dili müəllimləri ilə görüş




Marneuli Mülki Məşğulluq Mərkəzinin təşkilatçılığı ilə adı çəkilən mərkəzdə Gürcüstan Təhsil və Elm Nazirliyinin "Gürcü dili - gələcək uğur üçün" proqramının könüllü müəllimləri ilə Marneuli İcra Hakimiyyətinin başçısı Merab Topçişvili və Marneuli Təhsil Ehtiyatları Mərkəzinin rəhbəri Ruslan Hacıyevin muzakirə xarakterli görüşü keçirildi.

Görüşdə Marneulidə və əsasən kəndlərdə mövcüd olan təhsil problemləri,dil baryerini necə aşmaq və s. mövzülar müzakirə olundu.Görüş iştirakçıları həmçinin qeyd olunan problemlərin həlli yolları haqqında da bəhs edərək, kəndlərdə yaşayan gəncləri narahat edən problemləri icra başçısının nəzərinə çatdırdılar.

Müəllimlər həmçinin kənddə yaşayan gənclər üçün lazımi şəraitin-klubların, idman meydançalarının və əyləncə mərkəzlərinin olmamasından şikayət etdilər. Tədbir iştirakçısı Natia Mania kəndlərdə ekoloji problemlərin olduğunu söyləyərək bu problemin yerli özünüidarətmə səviyyəsində həll olunmasını arzu etdi.

# Saqareconun Ləmbəli kəndində yeni məktəb tikilir

***Gürcüstanın Təhsil və Elm naziri Tamar Sanikidze azərbaycanlıların yığcam yaşadığı Saqareco (Qaraçöp mahalı) rayonuna səfər edib.***

APA-nın Gürcüstan bürosunun məlumatına görə, Gürcüstan baş nazirinin köməkçisi Savalan Mirzəyev bildirib ki, nazir Ləmbəli kəndində orta məktəbə baş çəkib, habelə yeni məktəb binasının inşasının gedişi ilə tanış olub.

T. Sanikidze məktəbdə olarkən müəllim və şagirdlərlə söhbət edib, onların problemləri ilə maraqlanıb. Nazir bildirib ki, məktəb iki sektordan ibarət olacaq, şagirdlərə həm gürcü, həm də azərbaycanlı müəllimlər dərs deyəcəklər: "Məktəbin gürcü sektorunda 80, Azərbaycan sektorunda isə 935 şagird oxuyacaq. Üçmərtəbəli məktəbin ümumi sahəsi 6. 438 kv.m olacaq. Məktəb müasir standartlara cavab verəcək. Burada istilik sistemi quraşdırılacaq, idman və konfrans zalları, kitabxana və yeməkxana fəaliyyət göstərəcək, informasiya texnologiyaları və təbiət elmləri üzrə sinif otaqları olacaq, idman oyunları üçün 300 kv.m sahəni əhatə edən köməkçi obyektlər tikiləcək".



T. Sanikidze Ləmbəliyə səfəri zamanı qeyd edib ki, məktəb yeni tədris ilənədək istifadəyə veriləcək.

S. Mirzəyev isə APA-ya açıqlamasında Ləmbəli kənd orta məktəbinin çox acınacaqlı vəziyyətdə olduğunu və azərbaycanlı şagirdlərin icarəyə götürülmüş şəxsi evlərdə çətinliklə oxuduqlarını bildirib: "Ləmbəli kənd orta məktəbində oxuyan şagirdlər 8 ildən çoxdur ki, şəxsi evlərdə təhsil alırdılar. Məktəbin keçmiş binası acınacaqlı vəziyyətdə idi, uçmaq təhlükəsi yaranmışdı. Şagirdlər bir neçə kilometr yol qət edib qarda, yağış və palçıq içində şəxsi evlərə gedib təhsil alırdılar. Kənd əhalisi Gürcüstan hökumətinə müraciət etdikdən sonra hökumət qərara aldı ki, bu kənddə yeni və müasir standartlara uyğun 3 mərtəbəli bina tikilsin. Hazırda məktəbdə tikinti işləri sürətlə gedir".

# ARDNŞ Gürcüstan kəndlərini qazlaşdırmaqda davam edir

***Gürcüstan kəndlərinin qazlaşdırılması davam etdirilir.***

Gürcüstanın Zemo və Kvemo Nikozi, Zemo Hviti və Erqneti kəndlərinin qazla təchizatına başlanılması münasibətilə keçirilən mərasimdə Gürcüstan Baş nazirinin müavini və energetika naziri Kaxa Kaladze, Şida Kartli regionunun qubernatoru Zurab Rusişvili, Qori bələdiyyəsinin rəhbəri David Oniaşvili, "SOCAR Georgia Gas" şirkətinin direktoru Azər Məmmədov, Gürcüstan Qaz Nəqli Şirkətinin baş direktoru Mamuka Kobaxidze iştirak ediblər.



Energetika naziri və şirkət rəhbərləri Zemo Nikozi kəndinin mərkəzində rəmzi məşəli alovlandırıblar.

Kəndlərin qazla təchizatı üçün 24 kilometr uzunluğunda orta təzyiqli kəmər çəkilib, hər bir kənddə paylayıcı şəbəkə yaradılıb. 4 kənddə 1051 ailə qazla təmin olunub, hər bir evdə sayğac qurulub. Qazlaşdırma işlərini Gürcüstan Qaz Nəqli Şirkəti həyata keçirib.

"SOCAR Georgia Gas" şirkəti yeni abonentlərin paylayıcı şəbəkəyə qoşulması üçün montaj işlərini davam etdirir. 2014-cü ildən həyata keçirilən dövlət proqramı çərçivəsində Qori bələdiyyəsində 33 kənd qazla təmin olunub. Layihəyə dövlət büdcəsindən 19 milyon lari pul ayrılıb. Qori, Kareli, Kaspi, Xaşuri və Zuqdidi bələdiyyələrində 58 kəndin qazla təchizatı üçün tikinti işləri davam edir. Tikinti işləri başa çatdıqdan sonra burada 13 min ailə qazla təmin olunacaq.

# "Qars-Tbilisi-Bakı dəmiryolunun tikintisi 2015-ci ilin axırında başa çatacaq"

***"Qars-Tbilisi-Bakı dəmiryolunun tikintisi 2015-ci ilin axırında başa çatacaq".***

Bunu İstanbulda keçirdiyi mətbuat konfransında sualı cavablandırarkən Türkiyənin nəqliyyat, dənizçilik və kommunikasiya naziri Lütfi Əlvan deyib.

Layihənin xeyli yubanmasının səbəbini şərh edən nazir deyib: "Qars-Tbilisi-Bakı dəmiryolunun Türkiyə ərazisindəki uzunluğu 79 kilometrdir. Türkiyə tərəfində görüləcək işlər tam başa çatdırılıb. 2015-ci ilin axırında dəmiryolu xəttini istifadə verəcəyik. Bu xətt tarixi "İpək yolu"nun canlandırılması istiqamətində mühüm addımlardan biri olacaqdır. Bu dəfə təxirə salınma olmayacağını və dəmiryolu xəttinin 2015-ci ilin axırında istifadəyə veriləcəyini deyə bilərəm".



Qeyd edək ki, Qars-Axalkalaki-Tbilisi dəmiryolu tikintisinin 2014-cü ilin axırında istismara veriləcəyi daha əvvəl açıqlansa da, bunu reallaşdırmaq mümkün olmayıb. Türkiyə tərəfi işin Gürcüstan tərəfindəki landşaftın mürəkkəbliyindən meydana gəldiyini bildirib.

# Gürcüstan müsəlmanlarının yeni internet televiziyası yaradılıb

***Bütün Gürcüstan Müsəlmanları İdarəsinin nəzdində yaradılmış internet televiziyası www.müslimmedia.ge saytı üzərindən fəaliyyətə başlayıb.***

Bu layihənin rəhbəri Vidadi Qurbanovun verdiyi məlumata görə, veriliyi mənəvi silsilə xarakter daşıyacaq və verilişlərdə mütəmadi olaraq dini, cəmiyyəti mənəvi zəmində maraqlandıran daha aktual mövzulara yer ayrılacaq, keçirilən tədbirlər yayımlanacaq.

V. Qurbanov bildirib: "Ümid edirik ki, bu vasitə ilə maariflendirmə və



məlumatlandırma sahəsində dinimizə və cəmiyyətimizə az da olsa xidmət etmiş olarıq. İlkin çəkilişlər olduğuna görə müəyyən texniki və s. qüsurlara görə üzr istəyirik. Ümidvarıq ki, rəy və təklifləriniz sayəsində işimizi gündən-günə daha da təkmilləşdirəcəyik."

# Nazir müavini: *"Azərbaycan tərəfi ilə birlikdə təhsilə aid məsələlərin həllinə çalışacağıq"*

***"Gürcüstan məktəblərində çalışan bütün müəllimlər təkmilləşmə kursu keçəcəklər. Bu, milli azlıqların nümayəndələrinə də aiddir".***



Bunu açıqlamasında Gürcüstan təhsil və elm nazirinin birinci müavini Georgi Şarvaşidze deyib. Onun sözlərinə görə, Gürcüstanda fəaliyyət göstərən bütün məktəblərdə, o cümlədən Azərbaycandilli təhsil ocaqlarında problemlər tədricən həll olunacaq.

"Yaxın aylarda Azərbaycan təhsil nazirinin Gürcüstana səfəri gözlənilir. Biz səfərlə bağlı həmkarlarımızla danışıqlar aparırıq, gündəlik məsələləri razılaşdırırıq, nazirin səfərinin vaxtını dəqiqləşdiririk. Səfərin vaxtı dəqiqləşən kimi mətbuata açıqlama verəcəyik", - deyə nazir müavini bildirib.

G. Şarvaşidze Azərbaycan təhsil nazirinin Gürcüstana səfəri çərçivəsində Azərbaycandilli məktəblərin problemləri və dərsliklərlə bağlı vəziyyətin də müzakirə olunacağını bildirib: "Bütün məsələlər operativ şəkildə həll olunacaq. Bizim nazirliklə Azərbaycan Təhsil Nazirliyi arasında çox yaxşı münasibət qurulub və biz bütün məsələləri birlikdə öyrənib həllinə çalışacağıq. Bu sahədə bizdə heç bir çətinlik yoxdur".

Nazir müavini Azərbaycan təhsil nazirinin Gürcüstana səfərindən sonra onun gürcüstanlı həmkarının Bakıya səfərinin olacağını da bildirib.

**N. Məmmədzadə**

## ABŞ-dan İslamla bağlı tarixi qərar

ABŞ-da İslam dini ilə bağlı tarixi qərar verilib. Türkiyə mətbuatına istinadən verilən məlumata görə, Birləşmiş Ştatların ilk İslam universiteti - "Zaytuna College" ABŞ-ın Ali Təhsil Xidməti tərəfindən tanınıb.

Adıçəkilən ali məktəb 2010-cu ildən fəaliyyətə başlayıb. Universitet Məktəblər və Kolleclər Birliyi tərəfindən akkreditasiya olunub.



## Arktikada "soyuq müharibə": *Şimal dövlətləri Rusiya ilə əlaqələrini kəsdi*

Şimal ölkələrinin Nazirlər Şurasının Rusiyanın şəhərlərində yerləşən informasiya büroları bağlanıb.

Rusiya mətbuatına istinadən xəbər verilir ki, Şuranın Peterburq, Kalininqrad, Murmansk, Petrozavodsk və Arxangelskdəki mərkəzləri bağlanıb.

Şimal ölkələri Nazirlər Şurasının ofisindən verilən xəbərə görə isə, bu qərarın alınmasının əsas səbəbi



Rusiya hökumətinin bu mərkəzləri "xarici casuslar" siyahısına salmasıdır.

"Şimal ölkələrinin hökumətləri öz fəaliyyətlərini "xarici casus" statusu altında davam etdirə bilməzlər", deyə Şuranın əməkdaşlıq məsələləri üzrə naziri Krsten Hansen bildirib.

Xatırladırıq ki, qurumun Rusiyadakı ilk nümayəndəliyi 20 il əvvəl yaradılıb. Qurumun baş ofisi Danimarka, İslandiya, Norveç, Finlandiya, İsveç, Farer adaları, Qrenlandiya və Aland adaları tərəfindən maliyyələşdirilir.

## BVF Ukraynaya 17,5 milyard dollar ayırdı

***Beynəlxalq Valyuta Fondu (BVF) Ukraynaya 17,5 milyard dollar ayrılmasına dair qərar qəbul edib.***



Bunu BVF-un başçısı Kristin Laqard bəyan edib.

"Dördillik saziş Ukraynada iqtisadi stabillik və genişmiqyaslı siyasi islahatların həyata keçirilməsinə kömək edəcək. Saziş orta perspektivdə iqtisadiyyatın davamlı artımı və Ukrayna vətəndaşlarının həyat səviyyəsinin yüksəlməsini nəzərdə tutur", deyə K.Laqard bildirib.

Qeyd edək ki, müvafiq qərar Beynəlxalq Valyuta Fondunun direktorlar Şurası tərəfindən martın 11-də verilib.

## İtaliya Dağlıq Qarabağda keçiriləcək "seçkilər"i tanımır



İtaliya Azərbaycanın işğal edilmiş ərazilərində keçiriləcək qondarma "parlament seçkiləri"ni qeyri-qanuni hesab edir. Bu barədə Trend-ə qarşıdakı saxta "seçkilər"i şərh edərkən İtaliyanın Xarici İşlər Nazirliyindən (XİN) bildirilib.

Nazirlikdən deyilib ki, İtaliya Dağlıq Qarabağın "müstəqilliyi"ni tanımır və müvafiq olaraq qarşıdakı "seçkilər"i qeyri-qanuni sayır.

Qeyd edək ki, bundan əvvəl Azərbaycan XİN-in mətbuat katibi Hikmət Hacıyev demişdi ki, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunda separatçı rejimin mayın 3-də qondarma "parlament seçkiləri" keçirməsi qanunsuzdur: "Bu, Azərbaycan qanunlarının pozulması və münaqişənin tənzimlənməsi üzrə danışıqlar prosesinə zərbə vurmağa istiqamətlənib".

## Ən çox silah alıb-satan ölkələrin siyahısı açıqlandı

***Rusiya 2014-cü ildə silah ixracına görə dünyada ABŞ-dan sonra ikinci olub.***



Verilən məlumata görə, bu barədə "IHS Jane's Annual Defence Budgets Review" adlı hesabatda deyilir.

Hesabata görə, Rusiya 2014-cü ildə 10 mlrd. dollar dəyərində silah satıb. Sənəddə 2013-cü il ilə müqayisədə Rusiyanın silah ixracatının 9 faiz artdığı qeyd olunub.

Məlum olub ki, keçən il Rusiya Çinə 2,3 mlrd. dollar, Hindistana 1,7 mlrd. dollar, Vyetnam ve Venesuelaya isə ayrı-ayrılıqda 1 mlrd. dollar dəyərində silah satıb. Yaxın Şərq ölkələri isə Rusiyadan 1,5 mlrd. dollarlıq silah alıblar.

Ukrayna böhranı və sanksiyaların tətbiqi ilə əlaqədar Rusiyada yaşanan iqtisadi böhranın 2015-ci ildə silah satışına təsir göstərəcəyi bildirilir.

Dünyada ən çox silah satan ölkə isə ABŞ-dır. 2014-cü ildə bu ölkə 23,7 mlrd. dollar dəyərində silah ixrac edib. 2013-cü illə müqayisədə artım 19 faiz təşkil edib.

Hesabata əsasən, 2014-cü ildə Fransa 4,9 mlrd. dollar, İngiltərə 4,1 mlrd. dollar, Almaniya isə 3,5 mlrd. dollarlıq silah ixrac edib. İngiltərənin 2014-cü ildə silah ixracatını 45 faiz artırdığı qeyd olunub.

"IHS Jane's Annual Defence Budgets Review" silah idxal edən ölkələrin siyahısını da tərtib edib. Siyahıya Səudiyyə Ərəbistanı liderlik edir. 2014-cü ildə Səudiyyə Ərəbistanı 6,4 mlrd. dollarlıq silah alıb. Siyahıda ikinci yerdə 5,57 mlrd. dollarlıq silah idxal edən Hindistan qərarlaşıb.

Səudiyyə Ərəbistanının 2015-ci ildə silah idxalını 50 faiz artıracağı bildirilir. İHS eksperti Ben Mures Səudiyyə Ərəbistanının 2015-cü ildə silah idxalında ciddi yüksəliş olacağını söyləyib. Onun sözlərinə görə, ərəblərin bu il 9,8 mlrd. dollarlıq silah idxal edəcəyi gözlənilir.

Hesabatda 2014-cü ildə Orta Şərqə ən çox silah ixrac edən ölkələrin siyahısı da açıqlanıb. Siyahıya 8,4 mlrd. dollarla ABŞ liderlik edir. Keçən il Orta Şərq ölkələrinə İngiltərə 1,9 mlrd. dollar, Rusiya 1,5 mlrd. dollar, Fransa 1,3 mlrd. dollar, Almaniya 1 mlrd. dollar dəyərində silah satıb.

2013-cü ildə dünyada silah satışının ümumi həcmi 56,8 mlrd. dollar təşkil etdiyi halda, 2014-cü ildə müvafiq göstərici 64,4 mlrd. dollaradək artıb. 2015-ci ildə isə dünyada silah satışının ümumi həcminin 70 mlrd. dollara çatacağı gözlənilir.

## İran ordusu İraqın Tikrit şəhərinə girdi

***İranlı general Qasim Süleymaninin rəhbərlik etdiyi silahlı qruplar və İraq ordusu Tikritdə təşkil olunan əməliyyatlar zamanı şəhər mərkəzinin bəzi küçələrini ələ keçirib.***



Avropa.info xəbər verir ki, şəhərdə şiddətli döyüşlərin getdiyi bir vaxtda İŞİD silahlıları İraq ordusunun irəliləyişini çətinləşdirmək üçün Dəclə çayı üzərindəki yeganə körpünü havaya uçurub.

General Qasim Süleymaninin rəhbərlik etdiyi 30 minlik ordu Tikritin bəzi bölgələrini ələ keçirsə də şəhərin böyük bir hissəsi hələ ki, İŞİD-in nəzarətindədir.

Yerli mənbələrdən əldə olunan məlumata görə İŞİD şəhərə girən bəzi mərkəzi yollara partlayıcı yerləşdirərək özünü müdafiə etməyə çalışır.

İraq ordusunun Tikrit əməliyyatlarının uğurlu olacağı təqdirdə Mosul şəhərinə əməliyyatlar başladacağı bildirilir.

ABŞ rəhbərliyi isə Tikrit əməliyyatından məmmuniyyətini ifadə edib. Ağ Ev sözçüsü Coş Earnest keçirdiyi mətbuat knfransında bu addımı dəstəklədiklərini bildirib. "Tikrit əməliyyatın IŞİD ilə mübarizə çərçivəsində uğurlu əməliyyatdır. Tikritdə irəlləyişin olunmasından məmmunluq duyuruq."

## Bu ölkə Avropa İttifaqından imtina etdi

İslandiya Avropa İttifaqında üzvlüyə dair müraciətini geri götürüb. "Frans Press"ə istinadən verilən xəbərə görə, müvafiq qərar hökumətin iki il əvvəl üzərinə götürdüyü öhdəliyə uyğun olaraq qəbul olunub.



Qeyd edək ki, İslandiyanın 2015-ci ilin əvvəlində Aİ üzvü seçiləcəyi gözlənilirdi.

## Ən qədim insanın çənəsi tapıldı

***Elm adamları ilk insanlardan birinə aid olmasını ehtimal etdikləri çənə sümüyü tapıb.***

Araşdırmalar çənə sümüyünün 2 milyon 800 min il öncə yaşayan bir insana aid olduğunu göstərib.

Efiopiyada tapılan çənə sümüyü ilə bağlı tədqiqatlara Nevada Univeristetinin profes-



soru Brian Villmoare rəhbərlik edib. Onun sözlərinə görə, bu tapıntı insan təkamülündəki ən əhəmiyyətli keçid müddətinə dair məlumatlar əldə etmək üçün elm adamlarına ipucları verir.

Qeyd edək ki, 1974-cü ildə eyni ərazidə tapılan və "Luci" adı verilən insanabənzər canlının qalıqları üzərində araşdırma aparan alimlər onun təkamül nəticəsində ibtidai insana çevrildiyini bildirmişdi. İndi tapılan alt çənənin sol hissəsinə aid və üzərində 5 diş olan sümük isə ölçülərinə görə ondan daha kiçikdir.




**1639** — ABŞ-da Kembric kolleci Harvard adlandırıldı.

**1781** — İngilis astronomu Uilyam Herşel özünün düzəltdiyi teleskopla Günəş sisteminin yeddinci planetini — Uranı kəşf etdi.

**1869** — Rus kimyaçısı Dmitri Mendeleyev kimyəvi elementlərin qruplaşdırılmasını tamamladı.

**1921** — Monqolustan Çindən ayrılaraq öz müstəqilliyini elan etdi.

**1930** — ABŞ astronomu Klod Tombo Günəş sisteminin doqquzuncu planetini kəşf etdiyini elan etdi. Sonradan bu planet Pluton adını aldı.

**1954** — SSRİ Dövlət Təhlükəsizlik Komitəsi yaradıldı.

# Bizim Tamam müəllim

Bəşəriyyətin inkişaf tarixinin bütün mərhələlərində məktəb həmişə ali məqsədə, xeyirxahlığa və müqəddəs ideyalara xidmət edən təlim ocağı olub. Bu xidməti vəzifəni isə yerinə yetirən hamı üçün müqəddəs müəllimlər olub. Belə şərəfli vəzifəni yerinə yetirən məktəblərdən biri də böyük tarixə və zəngin adət-ənənələrə sahib olan, Gürcüstanın paytaxtı Tbilisi şəhərinin qədim məhəllələrinin birində yerləşən, Azərbaycan dramaturgiyasının banisinin adını şərəflə daşıyan M. F. Axundov adına 73 saylı ümumi Azərbaycan məktəbidir.

XIX-əsrin sonunda təməli qoyulan, XX əsrdə öz fəaliyyətinin yüksəlişinə çatan, hal-hazirda özünün üçüncü yüzilliyini yaşayan bu məktəb, çox sınaqlardan çıxıb, öz məhsuldar əməli işinin düzgün qurulması sayəsində, indi də təhsil sistemində və ictimai həyatda qabaqcıllar sırasındadır. Bu ada məktəb, burada çalışan maarif qabaqcıllarının, sözün həqiqi mənasında, öz sənətininin vurğunu olan peşəkar müəllimlərin əməyi sayəsində nail olmuşdur. Tarixə müraciət etsək görərik ki ,burada səsi yaşlı nəslin xatirəsində qalan Gürcüstan radiosunun Azərbaycan dilində verilişlərinin aparıcısı Aləmzər Rzayeva, məşhur riyyaziyyatçı, tədris-metodika məktəbinin yaradıcısı İsfəndiyar Musayev, rus dili filologiyasının dərin bilicisi Sima Cəfərli, məşhur kimyaçı-alim İbrahim Manafli və başqa korifeylər bu məktəbdə çalışıb, cəmiyyətimiz üçün ziyalılar yetişdiriblər. Bu adət-ənənə indi də davam edir. Azərbaycan dili və ədəbiyyatı müəllimi Tamam Əliyeva da onların sırasındadır. Bu məktəbin məzunu olan Tamam müəllim ömrünün 45 ilini doğma məktəbdə Azərbaycan dilini yüksək səviyyədə tədris edir. Özünün gərgin əməyi, tələbkarlığı, bilikbacarığı və məsuliyyətliliyi sayəsində şagird, müəllim və valideynlər arasında böyük hörmət sahibidir.



Tamam Əliyeva 1948 ci ildə ziyalı ailəsində anadan olub.1965-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirən gənc Tamam təhsilini Tbilisi Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsində davam etdirib. 1970-ci ildən isə məzunu olduğu doğma məktəbə yüksək ixtisaslı müəllim kimi qayıdıb. Dərs prosesində məktəbə daxil olan hər bir kəs Tamam müəllimin səsini eşidəndə bir daha anlayır ki, dilimiz necə şirin, necə də saf və zəngindir Onun fənn tədrisinin bu metodikası və mənəvi keyfiyyətləri Tamam müəllimin şagirdlərinin bəzilərini dilçilik sənətinə gətirib çıxarmışdır. Tamam müəllim həm də, məktəbdə fəaliyyət göstərən dram dərnəyinə rəhbərlik edir. Onun yaradıcı və gərgin əməyi sayəsində bir sıra şagirdlərdə aktyorluq istedadı aşkar edilmişdir. Məktəbdə keçirilən hər bir tədbirdə, hamı səbirsizliklə Tamam müəllimin yetirmələrinin çıxışlarını gözləyir, hər bir tamaşaya qoyulmuş səhnə böyük diqqət, maraqla qarşılanır və alqışlanır. Təsadüfi deyil ki, Tamam Əliyevanın çoxillik səmərəli pedaqoji fəaliyyəti layiqincə qiymətləndirilmişdir. O, Təhsil Nazirliyi sistemində yeganə azərbaycanlı qadın müəllimdir ki, son 20 ildə,, Şərəf,, ordeni ilə təltif olunmuşdur. Tamam Əliyeva şagirq-müəllim heyətinin və valideynlərin sevimlisi olmaqla, hamı onu "bizim TAMAM müəllim" deyə çağırır. O, həm də layiqli anadır. Həyat yoldaşı "Gürcüstan" qəzetinin baş redaktoru İslam Əliyevlə birlikdə, üç övlad böyüdüb, hamisına ali təhsil verib, həyat yoluna uğurlamışlar.

Əzizimiz Tamam müəllim, Sizi 8 Mart Beynəlxalq Qadınlar bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, dilimizin qorunub-saxlanılması və şagirdlərə aşılanması yolunda səylərinizdə uğurlar arzulayırıq!

**Qəhrəmanlar**

# Oğlan olana qədər doğmaq



**Sevda SULTANOVA**

Bir neçə həftə əvvəl "Xəzər" televiziyasının xəbərlər proqramında qız doğduğuna görə evdən qovulan gəlin haqda süjet verilmişdi.

Ağa Cəfərliyə hadisə ilə bağlı yazıb-yazmamağı məsləhətləşəndə dedi ki, "əlbəttə yaz, amma XXI əsrdəki problemimizə bax".

Doğrudan da...

Mobil telefon, internet, televiziya vasitəsilə ölkələr arasında sərhədlərin itdiyi, sıravi azərbaycanlının ən azı məişət-sosial həyatında müasirliyə iddia etdiyi dövrdə qıza münasibətdə geri zəkalı düşüncənin əsiri olmaq absurddur.

Yaxın qohumumuzun ailəsində belə şey olmuşdu. Hamilə qadının növbəti UZİ müayinəsində həkim əvvəlcə dünyaya gələcək körpənin ilk övlad olub-olmadığını soruşmuşdu. İlk övlad olduğunu biləndə tərəddüdlə, çəkinə-çəkinə uşağın qız olduğunu dedi. Həkimin ehtiyatlı münasibəti əksər ailələrdə hələ də qıza ikinci növ insan kimi baxılmasının göstəricisidir.

Qızdan fərqli olaraq, oğlan uşağı dünyaya gəlməzdən öncə ailədə mütləq onun müsbət imicini cızırlar: oğul düşmən çəpərdir, ailəyə dayaqdır, nəslin davamçısıdır. Nəticədə patriarxal düşüncəli belə ailələr adətən faydasız, yararsız övlad yetişdirir. Hətta kasıb ailələr var ki, oğlan doğana kimi doğum prosesini dayandırmırlar. Bu proses bəzən yeddi qıza qədər davam edir.

Qəribə bir şey daha var. Cinsəl münasibətlərə ehtiyatla yanaşan, abır-həya gözləyən azərbaycanlı nədənsə, körpə oğlanın çılpaq (qızdan fərqli olaraq) şəklini məsələn, sosial şəbəkələrdə cəsarətlə yayır. Və mütləq "əmi sənin duduşunu yesin" şərhini yazanlar da tapılır. Avropalı yəqin ki, "duduşunu yesin" cümləsində haqlı olaraq pedofiliyanın izlərini axtarardı. Amma bunun pedofiliyadan çox oğlan uşağının üstünlüyünü önə çəkən milli mentallığımızı bilməsi üçün bizi yaxşı tanıması lazımdır.

Sanki oğlunun çılpaq fotosunu yayan valideyn əsas aksenti onun cinsiyyət orqanına edir, onu bir növ qürur mənbəyi, düşmən çəpəri kimi görür. Hətta bəlkə alt şüurunda düşmənlərinə, sevmədiyi insanlara mesaj da yollayır: böyüsün, sizin nəslinizi, ana-bacınızı belə-belə edər.

Qıza münasibəti isə Həsən Quliyev daha dəqiq izah edir: "Anadan olan kimi qız uşağı hamının mənəvi nəzarətinə məruz qalır. Hətta evin daxilində də onun həyat sahəsi məhdudlaşdırılır: qonaqların yanına getmək və kişilərin dincəldiyi otağa girmək məsləhət görülmür. Onun hər bir hərəkəti (dəcəlliyi, nadincliyi, hər şeyə hədsiz maraq göstərməsi və s.) yaşlıların diqqət mərkəzində olur və əgər qadının mənəvi həyat tərzi ilə ziddiyyət təşkil edirsə, onun nalayiq hərəkəti dərhal düzəldilir. Lakin çox az hallarda belə tədbirlərə əl atılır, çünki qız uşağı utancaqlıq hissi ilə (vicdan əzabı sindromu) özü öz hərəkətlərinə nəzarət edir: el içində biabır olmaq təhlükəsi onu ənənəvi qohum-əqrəbanın hazırladığı «əxlaq qəfəsi»ndən kənara çıxmağa qoymur. Qızı daim nalayiq (qadına yaraşmayan) hərəkətinə görə utandıraraq ona son dərəcə qapalı əxlaq məcrasından kənara çıxmağa imkan vermirlər. Onun şüuru demək olar ki, hər bir qeyri-iradi uşaq sərbəstliyindən ötrü total utancaqlıq mənəvi kompleksi ilə formalaşır".

Yəqin ki, nə vaxtsa sivil, sosial cəmiyyət qurulacaq, bir çox dəyərlər dəyişəcək, amma azərbaycanlının şüurundakı bu arxetip heç zaman köhnəlməyəcək: "Əmi sənin duduşunu yesin".

# Turacın uğur kitabının sərlövhəsi

*(activus)*

Turacın özündən əvvəl onun yazılarını tanımışam. Bu yazılar ədəbi-bədii yazılar deyil, əsasən informasiya və analitik xarakterli yazılar, tərcümələr olub. Və Turacla bağlı özüm üçün kiçicik bir kəşf də eləmişəm: zənnimcə, onun həyatda uğur qazanmağının başlıca sirri vaxtdan səmərəli istifadə eləməyi olub. Çünki Turacın yaşıdları arasında vaxt çatışmazlığından şikayətlənənlər o qədər çoxdur ki, onları hətta barmaqhesabı saymaq da olmur. Mən bunu Turacla redaksiyamısdakı görüşümüzdə də ona xatırlatdım. Xatırlatdım və əmin oldum ki, doğrudan da əbəs yerə deməyibləmiş: vaxtdan ağıllı istıfadə etsək, kifayət qədər vaxtımız qalırmış!

Turac çox maraqlı həmsöhbətdir. O hesab edir ki, gənc adam üçün ən önəmli olan Allahını, özünü və zəmanəsini tanımaqdır. Əlavə edir ki, həyat kitabımız gündəlik həyatımızın göstəricisi olan təqvimlərdən seçilməlidir. Məsələn, təqvimlərdə bəzi günlər qırmızı və qara rənglərlə işarələnir: bayramlar, istirahət günləri və sairə. Bir sözlə, istər Günəş təqvimindən istifadə et, istərsə də Ay təqvimindən, gənc adam özünə rəva görməməlidir ki, itirilmiş vaxt xətasına yol verilsin.



Turacın gürcü dilini öyrənmək tarixçəsində də bir həzinlik var. Onların evinə peyk antenası gecdəngec gəlib. Çünki hər bir kasıb ailənin peyk antenasından öncə xeyli sayda aradan qaldırılası ehtiyacı olur. Adi antenalı televizor isə bircə kanalı – yerli Marneuli kanalını göstərirdi və Turacın gürcü dilinə yiyələnmək tarixcəsində sevgidən dolayı, bir də bir danılmaz "məcburilik" olub. Məhz bu dilbilmək, könüllü "məcburilik" sonralar ona imkan verib ki, unudulmaz Səməd Vurğun demiş, "uçarda turac" olsun! Bu üstünlüyünün sayəsində bəzi nəfs yoxsulu olan yaşıdlarından filhəqiqət fərqli olaraq heç bir "Həsən ağanın qohumları" stereotipinə ehtiyacı olmayıb, tapşırığa-filana, zəngə möhtac olmayıb.

...Turac Allahverdi qızı İbrahimova Marneuli rayonunun Candar kəndindəndir. İxtisasca ali təhsilli tarix müəllimidir. Orta təhsil aldığı Candar kənd ümumtəhsil məktəbinin dilədəbiyyat müəllimi Vahid Namazov Turac haqqında mizantərəzinin mənası olan səmimi ədalətlə danışır:

– Peyğəmbərimizin (s) sözüdür deyir: "Cavanlıqda öyrənilən elm daşa həkk olunmuş yazıya bənzəyir, yaşlı vaxtda öyrənilən elm isə su üzərindəki yazıya". Turac bu müdrikliyi elə məktəb illərindən əxz edib. Onun inşa yazılarını xatırlayıram. O inşa yazılardakı yaqinliklər, ümid, arzu və ülfət işarələri, hətta bəzi təqlidlər belə, bundan xəbər verirdi ki, Turac öz ömür dəftərinin, uğur kitabının sərlövhəsini özü yazacaq. Daha durub bəzi tənbəllərtək, kimdənsə kopyalamayacaq, kimdənsə oğurlayıb köçürməyəcək.

Turac İbrahimova ayrı-ayrı vaxtlarda Marneuli TV-də, Mülki Məşğulluq Mərkəzində (USAİD), Qızılhacılı orta məktəbində çalışıb. Hazırda Marneuli bələdiyyəsində ictimai əlaqələr xidmətində baş mütəxəssis kimi fəaliyyət göstərir.

Turac haqqında onunla bir sinifdə oxumuş, indi Marneuli Gənclər Mərkəzinin ("Çay Evi") mətbuat katibi olan Aynurə Əliyeva belə deyir:

– Turacla bir yerdə böyümüşük və bu "bir yerdə böyümək" ifadəsində azadəlik və asudəlik də var, başucalığı və bacarıq da var, hələ indən belə qazanılacaq uğurlarımızdan xəbər verən məsuliyyət dolu mətləblər də...

Turacın şəxsən mənə mənəvi qohum olan bir tövsiyəsini də diqqətinizə çatdırmağı özümə borc bilirəm. O, ingilis, gürcü dillərini bilməyin vacibliyi sırasında ən vacib əməllərdən biri olaraq məktəblərimizdə ana dilimizin tədrisinə diqqətin və qayğının da artırılmasını istəyir. Deyir ki, əgər biz səhlənkarlıq eləyib dilimizə məhəbbət səviyyəsini aşağı salsaq, son peşmançılıq fayda verməyəcək. Çünki başqa dilə məhəbbət ancaq öz dilinə olan məhəbbətdən doğa bilər.

**P.S.**

***...Turac redaksiyamıza yeni yazı göndərib: gənclərin inkişaf strategiyası ilə bağlıdır. O, sevgisini qoyduğu bu yazıda da səsini yox, sözünü qaldırmağa çalışıb. Çünki yaxşı bilir ki, quru qara-qışqırıqdansa, sözün namuslu quluna çevrilmək xoşdur Allaha!***

**İbrahimxəlil**

# Qadının ən gözəl olduğu *yaş dövrü*



Ən gözəl yaş təbii ki, gənc yaşlardır. Çoxları elə hesab edir ki, qadınların ən gözəl olduğu dövr 20 yaşında olduqları vaxtdır. Əslində isə bu yanlış düşüncədir.

Yeni araşdırmalar göstərir ki, qadınların ən gözəl yaşı 30-35 yaş arasıdır. Bu yaşlar arasında qadın yetkin olmaqla birlikdə, gözəlliyinin zirvəsini yaşayır. 30 yaşında olan qadınlar gənc qızlara nisbətən daha cazibədar görünür.

Qadın 25 yaşından sonra gün keçdikcə cavanlaşır və gözəlliyinə gözəllik qatır. Bu isə "Qadın şərab kimidir" aforizmini xatırladır. Mütəxəssislər onu da qeyd edir ki, qadının gözəlləşməsi onun xarakterinin formalaşması və yetkinləşməsi ilə əlaqədar olur. Yəni yetkin qadınlar daha gözəl görünür.

Hətta məlum olub ki, özünə güvənən 30 yaşındakı qadınlar, 20 yaşındakı gənc qızlardan daha gözəl görüntüyə sahib ola bilir.

# HƏYATIN TARİXƏ ÇEVRİLMİŞ ANLARI



Qədim Tiflis deyiləndə, ilk növbədə, Rus fotoqraf, şərqşünas, etnoqraf Dmitri Yermakov yada düşür. Çoxlu səyahət edən bu sənətkar Qafqazın və Güney Qafqazın bir sıra maraqlı etnik fotosunu lentə alaraq həyatda əbədilik möhürünü vurub. Bizim üçün maraqlı haldır ki, Borçalı mövzusu da onun yaradıcılığında özünə yer tutub. Qədim Tiflisin ayrı-ayrı guşələri bir anın içində tarixin yaddaşına həkk olunub. Onun fotolarının köməkliyi ilə hazırda uçurulmuş və ya dağıdılmış bəzi tikililər, binalar, məbədlər barədə insanda müəyyən təəssürat yaranır. Məsələn, şah Abbas məcidinin bir neçə yerdən görünüşü, eləcə də, hazırda mövcud olan Tiflis Cümə məscidinin yenidənqurulmasından əvvəl bir neçə fotosu, indiki Rustaveli prospektində parlamentin binasının yerində o vaxtlar Qünib meydanı adlanan yerdə Aleksandr Nevski məbədinin fotoları bizə qədər gəlib çatmışdır.19-cu əsrin sonlarını, 20-ci əsrin əvvəllərini onun foto obeyktivsiz təsəvvür etmək çətindir. Bu peşəkar fotoqraf Gürcüstanda fotoqrafiyanın pioneri hesab olunur və Tiflisin görkəmli yerləri ilə tanış olmaq üçün bizə böyük imkanların verilməsi onun xidmətidir. Qədim Tiflisin tarixi, etnoqrafik və coğrafii informasiyasını fotoneqativə köçürərək nəsillər üçün qoruyub saxlamışdır. Dmitri Yermakov barəsində oxuculara müəyyən məlumat vermək istəyirəm. Dmitri Yermakovun anadan olmasının bir neçə versiyası mövcuddur. Birinci versiyaya görə, o, 1845-ci ildə Tiflisdə anadan olmuşdur. İkinci versiyaya görə isə, 1846-cı ildə Naxçıvanda anadan olmuşdur. Yermakovun doğum tarixi qraf Mixail Vorontsovun Qafqaza təyin olunması ilə əlaqədardır. Onu da qeyd etmək lazımdır ki, 1845-ci ildə Güney Qafqazda canişinlik vəzifəsi tətbiq olunmuşdur. Qafqazda ilk canişinlik Mixail Vorontsovun adı ilə bağlıdır. Məlumdur ki, Vorontsov Odessadan öz həmfikirlərini: memarları, rəssamları gətirdi. Onların arasında Odessanın abadlaşdırılmasında mühüm əməyi olan italyan memarı Luici Kambiacio da var idi. Yayılan məlumata görə, Dmitri Luicinin oğlu idi, ikinci versiyaya görə isə Luici Kambiacio Dmitri Yermakovun babasıdır. Faktdır ki, Dmitri Yermakov atalığının soyadını daşıyırdı. Belə nəql edirlər ki, Tiflisdə müəyyən dövr yaşayandan sonra onun anası Luici Kambiaciodan ayrılaraq Rusiyaya yollanıb ki, burada da Yermakova ərə cedib və oğluna da ikinci ərinin soyadını verib. Dmitrinin anası kəndli malakan idi. Dmitri Yermakovun Tiflisə necə və niyə qayıtması naməlumdur. ( Heç getməməsi də mümkündür). Halbuki, onu da nəql edirlər ki, o, birinci klassik oğlanlar gimnaziyasını bitrib, sonra isə Tiflisin şimalında 102 kilometr uzaqlığında Gürcüstan Hərbi Yolunda yerləşən Ananuridəki Hərbi Topoqrafiya Akademiyasında hərbi topoqraf ixtisasına yiyələnib. Məhz elə bu akademiyada təhsil aldığı dövrdə fotoqrafiya ilə maraqlanmış və bir neçə ildən sonra ictimaiyyət arasında bir peşəkar fotoqraf kimi tanınmışdır.1860-cı illərin sonunda D.Yermakov akademiyanı tərk edib və 1866-cı ildə Tiflisdə öz foto-atelyesini açıb. D.Yermakovun foto-studiyası həmin dövrlər məşhur olan Saray (Qolovin prospekti - indiki Rustaveli prospekti) ilə İrəvan (indiki Azadlıq) meydanı arasında dar boğaz yaradan küçə belə adlanırdı- M.M.) küçəsində yerləşirdi. Orada illər boyu bir çox fotoqraf fəaiyyət göstərirdi. Həmin yerdə 1846-cı ildə ilk foto emalatxanasını fotoqraflar Xlamov və gürcü fotoqrafiyasının pioneri Aleksandre Roinişvili açıblar. Foto-emalatxana «Rembrant» adlanırdı . Yermakov isə foto-atelyesini rəssam Kolçin ilə birlikdə Tsovianovun evində açdı və əvvəlcədən «kabinet portretlərini» çəkirdi ki, bunu da tiflislilər «vizit kartı» adlandırırdılar. D. Yermakorvun foto-atelyesi o qədər populyar idi ki, o, 1870-ci ildə Qolovin (indiki Rustaveli) prospektində klassik gimnaziya ilə üzbəüz tərəfdə knyaz Mdivaninin evində ikinci foto-atelye açdı. Foto-studiyanın yaradılmasından bir neçə il sonra D. Yermakov Avropada fotoqrafların ən nüfuzlu assosiasiyasının üzvü oldu. 1870-ci ildə 25 yaşlı Dmitri Yermakov Qafqaz barəsində özünün ilk albomunu Peterburqa göndərdi. Onun bu albomu Rusiya Coğrafi-ya Cəmiyyəti üzvlərinin böyük marağına səbəb oldu. 1974-cü ildə D.Yermakov Trabzonda çəkdiyi fotoları sərgiləndirdi. 1878-ci ildə o, Moskva antropologiya sərgisində iştirak edib ki, burada da onun fotoları ləyaqətli yer tutub. 1877-78-ci illər Rusiya-Türkiyə müharibəsi zamanı D.Yermakov hərbi topoqraf kimi xidmət edirdi və sözsüz ki, foto-aparatı da əlindən buraxmayıb. Müharibə kadrları onun foto kolleksiyasında xüsusi yer tutur. Fotoqraf Gürcüstana, Azərbaycana, Ermənistana, Şimali Qafqaza, Krıma, İrana, Türkiyəyə, Orta Asiyaya, Yaxın Şərqə... səyahət edib. Şəhərlərin mənzərələrini, peyzajları, memarlıq abidələrini, etnoqrafik qrupları lentə alırdı. Ancaq, D.Yermakovun həyatında onun doğma şəhəri-Tiflis şəhəri mühüm yer tutur. Belə ki, bu şəhərə yüzlərlə fotodan ibarət albom həsr edib. 1907-ci ildə D.Yermakov Moskva Arxeoloji Cəmiyyətinin Qafqaz şöbəsinin üzvü, 1912-ci ildə isə Tiflis İncəsənət Cəmiyyətinin üzv- təsisçisi seçilir. İrana səyahət edərkən o, İran şahının şəxsi fotoqrafı hesab olunurdu. 1903-cü ildə «Tiflisski listok» qəzeti məlumat verirdi ki, imperator əlahəzrətləri III Aleksandr onun şəkillərinə o qədər heyran olur ki, şəxsən 500 ədəd fotonu satın alır. Dmitri Yermakov Tiflisdə yaşayan avstriyalı inşaatçının qızı Anna Bihold ilə evlənmişdi. Onların üç övladı olub: İvan, Aleksandr və Lüdmila. Dmitri Yermakovun ölümündən sonra onun işini Aleksandr və Lüdmila davam etdirib. Böyük oğlu İvan başqa yol tutub. Dmitri Yermakov 1916-cı il noyabrnın 10-da dünyasını dəyişib. O, Tiflisin üst yanında yerləşən qədim Kukiya katolik məzarlığında dəfn olunub və güman edildiyinə görə, onun qəbri bu gün itib.



Borçalı qadınları atın belində



Müsəlman xalça satıcıları

**Mirzə Məmmədoğlu**

# Səhnəmizin fədakar xadimi - İbrahim İsfahanlı

Tiflisin azərbaycanlı mühitinin mədəni tərəqqisində mühüm rol oynayan Tiflis Azərbaycan Teatrı 1873-cü ildə yaranıb. İctimai teatr kimi fəaliyyətə başlayan mədəniyyət ocağı ötən illər ərzində ətrafında peşəkar aktyor ordusu birləşdirməyə müvəffəq olub. Kadr potensialı, ustalıqla səhnələşdirilən tamaşalar - bütün bunlar teatra yeni-yeni uğurlar gətirib.



Qısa müddət ərzində geniş auditoriya toplayıb. Teatra kütləvi axın isə incəsənət ocağının maddi təminatının qarantına çevrilib. Hətta fəaliyyəti dövründə Tiflisin bir sıra teatrlarının maliyyələşdirilməsində rol oynayıb. Mədəniyyət ocağı Azərbaycan teatr sənətinin inkişafına da töhfələr verib. Görkəmli kino və teatr xadimlərimiz Möhsün Sənani, Mustafa Mərdanov da məhz bu teatrın yetirmələridir. 1947-ci ildə fəaliyyəti dayandırılan teatr böyük fasilədən sonra 1998-ci ildə yenidən işə başlayır. 2004-cü ildə Tbilisi Azərbaycan Teatrına Dövlət statusu verilir. Qərar teatrın inkişafının yeni mərhələsinin əsasını qoyur. Azərbaycan-Gürcüstan ədəbi-mədəni dostluq əlaqələrinin gündən-günə möhkəmlənməsinin teatrın inkişafına təsiri danılmazdır.

Bu tetarda böyük əmək sərf edən tanınmış mədəniyyət xadimlərindən biri də Gürcüstanın Xalq artisti İbrahim İsfahanlıdır. Tiflis Dövlət Azərbaycan Dram Teatrının inkişafında böyük xidmətləri olan şəxslərdən biri olmaqla yanaşı, Azərbaycan mədəniyyətinin və ictimai fikrinin bir sıra qabaqcıl nümayəndələri kimi o da Qafqaz xalqlarının mədəni yüksəlişi və işıqlandırılması uğrunda özünəməxsus sənətkar kimi xalqın rəğbətini qazanıb. Təsadüfi deyil ki, gürcü mədəni-ictimai mühitində xüsusi yeri olan Akaki Xorava onun haqqında yazırdı: "Sənin, doğma mədəniyyətinin inkişafına, xalqının tərəqqisinə sərf etdiyin namuslu, xeyirxah zəhmətin və istedadın ən yüksək qiymətə layiqdir".

İbrahim Hüseyn oğlu İsfahanlı (Hüseynzadə) 1897-ci ildə Tiflisdə fəhlə ailəsində anadan olub. 8 yaşında ikən ehtiyac üzündən atası Hüseyn kişi onu çəkməçi yanına şagird qoyub. Balaca İbrahim çəkməçi yanında işləsə də, Tiflisin qaynar teatr həyatı onu özünə cəlb edirdi.

Gənc İbrahim İsfahanlını teatr aləminə gətirən böyük eşq və amal olub. İ. İsfahanlının aktyorluğa başladığı illər Gürcüstanın teatr həyatının coşqun dövrü idi. Burada yerli aktyorlardan başqa, Rusiyanın görkəmli teatr kollektivləri, habelə xarici truppalar da çıxış edirdilər. Belə bir vaxtda sənət aləminə qədəm qoymaq, İ. İsfahanlı üçün bir aktyor kimi şöhrət qazanmaq çox çətin idi. O zamanlar tez-tez Tiflisdə qastrolda olan bir aktyorun yazdığı kimi, bu vaxtlar sənətkarın başına çələng də hörər, üstünə lax yumurta da ata bilərdilər. Elə də ola bilərdi ki, aktyor eşqi ilə yaşayan həmin adam ancaq teatrın binasının fəsadına tamaşa etməli olardı. Lakin İ.İsfahanlının aktyorluq fəaliyyəti başqa yolla getdi. O, öz istedadının parlamasını uzun zaman gözləmədi, az bir vaxtda Tiflis Azərbaycan teatrında məşhurlaşdı.

Görkəmli gürcü artisti Vaso Abaşidze, yazıçı-dramaturq Şalva Dadiani, ictimai xadim və aktyor Valerian Qunianinin təşəbbüsü və köməyi ilə 1909-cu ildə Azərbaycan teatr truppası Zubalov adına "Narodnı Dom"un səhnəsində ayda iki-üç tamaşa göstərməyə icazə aldı. Bu tədbir teatrın vəziyyətini xeyli yaxşılaşdırdı. Truppanın hazırladığı tamaşaların keyfiyyətini daha da artırmağa səbəb oldu.

İbrahim İsfahanlı istedadlı aktyor, rejissor və yazıçıların əhatəsində böyümüşdü. Buna görə də xüsusi teatr təhsili görməyən İbrahim üçün realist Azərbaycan yazıçı və səhnə ustalarının yaradıcılığı, sözün həqiqi mənasında, böyük bir məktəb idi. O öz istedadı sayəsində yüksək sənət zirvəsinə qalxmışdı.

Fəlsəfə elmləri doktoru, professor, uzun illər Gürcüstan Kommunist Partiyası Mərkəzi Komitəsində məsul vəzifələr daşımış mərhum Teymuraz Cəfərli özünün "Böyük dostluğun səhifələri" adlı kitabında göstərirdi ki, Gürcüstanda Sovet hakimiyyəti qurulmazdan xeyli əvvəl, inqilabi ruhlu azərbaycanlı ziyalılardan Əşrəf Yüzbaşov, Hüseyn Şabanov, Əli Tağızadə, Həsən Səbri, Məmməd Cəfərli, Mirzə Davud Rəsulzadə və başqaları da teatr sənətinin tərəqqisi yolunda əllərindən gələni əsirgəmirdilər.

Sovet hakimiyyətinin mövcudluğu illərində Azərbaycan aktyorlarının truppası Dövlət Teatrına çevrildi. Gürcüstanda Azərbaycan teatrının əsl çiçəklənmə dövrü də məhz bu vaxtdan başlayır. Kommunist Partiyası və Sovet dövlətinin teatra qayğısı nəticəsində həvəs və məhəbbətdən daha ciddi sənət problemlərinin həllinə girişildi. İstedadlı aktyor kollektivi müasir dövrün tələbləri ilə ayaqlaşmağı özünə böyük borc və şərəf bildi. Bütün bu işlərdə İ.İsfahanlının coşqun yaradıcı əməyi olub.

Aktyorun ən yaddaqalan səhnə surətləri Xlestakov ("Müfəttiş", Nikolay Qoqol), Klimantura ("Jorj Danden", Jan Batist Molyer), Dəmirqaya, Şeyx Sənan, İblis, Keykavus ("Topal Teymur", "Şeyx Sənan", "İblis" və "Səyavuş", Hüseyn Cavid), Yaqo, Hamlet ("Otello" və "Hamlet", Vilyam Şekspir), Elxan, İbad, Oqtay, Balaş ("Od gəlini", "Almaz", "Oqtay Eloğlu" və "Sevil", Cəfər Cabbarlı), Nadir şah ("Nadir şah", Nəriman Nərimanov), Şahmar bəy, İblis, Nəcəf bəy ("Baba yurdunda", "Pəri cadu" və "Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), General Tomson ("Hind qızı", Əbdülhaq Hamid), Nizami ("Nizami", Mehdi Hüseyn) və başqalarıdır. İbrahim İsfahanlı Mirzə Fətəli Axundzadə adına Tiflis Dövlət Azərbaycan Dram Teatrında onlarla baxımlı tamaşa hazırayıb. Bunlardan "Əsli və Kərəm", "Leyli və Məcnun", "Şah Abbas və Xurşid banu", "Arşın mal alan", "Məşədi İbad", "Aşıq Qərib", "Əlli yaşında cavan", "Evliykən subay", "Otello", "Hamlet", "Qaçaqlar", "Ölülər", "Hacı Qara", "Lənkəran xanının vəziri", "Xırs quldurbasan", "İblis", "Uçurum", "Knyaz", "Şeyx Sənan", "Topal Teymur", "Od gəlini", "Aydın", "Almaz", "Sevil", "Vaqif", "Toy", "Anzor", "Kinto", "Ac həriflər", "Pəri cadu", "Bəxtsiz cavan" və digər əsərlərin quruluşları xüsusilə diqqət çəkib.

Teatr İ. İsfahanlı üçün doğma evi kimi idi. O burada həm rejissorluq, həm də aktyorluq edirdi. Bir aktyor kimi o, daha çox romantik səpkili qəhrəmanların səhnə təcəssümünə meyl göstərirdi. Həmlet, Aydın, Elxan, Oqtay, İsgəndər, Ferdinand, şeyx Sənan kimi obrazlar vasitəsilə tamaşaçıları həyat vərdişlərinə qarşı mübarizəyə və yüksəlişə səsləyirdi.

İ.İsfahanlı həmişə deyərdi ki, mənim ən fərəhli günlərim, xoşbəxt çağlarım teatrda keçib. Lakin bu o demək deyildi ki, böyük sənətkar sənətin başqa sahələrində iştirak etməyib. Əksinə o, həyatının son dövrlərində də böyük bir şövqlə Tbilisidə teatr, musiqi kollektivlərinə rəhbərlik edib, bədii qiraət ustası kimi Azərbaycan və gürcü poeziyasının alovlu təbliğatçılarından biri olub. Onun M. İbrahimovun "Böyük dayaq" filmindəki Yarməmməd rolu da qocaman artistin son illərinin yaradıcılıq məhsuludur.

Görkəmli aktyor və rejissorun sənəti, ictimai fəaliyyəti dövlət tərəfindən layiqincə qiymətləndirilib. 1958-ci ilin iyul ayının axırlarında onun anadan olmasının 60 illiyinin təntənə ilə qeyd edilməsi də bu diqqət və məhəbbətin ifadəsi idi. Həmin gecə İ. İsfahanlı "Nadir şah", "Hamlet", "Oqtay Eloğlu"tamaşalarından bəzi səhnələri ifa etdi. Onun saçları gümüşü qışdan xəbər versə də, böyük sənətkar səhnədə yenə də alovlu, ehtiraslı və cazibədar idi.

...İbrahim İsfahanlının sənət eşqilə vuran qəlbi 1967-ci ildə dayandı. Coşqun, yaradıcı mədəniyyət xadiminin ölümü Tiflis Azərbaycan Teatrı üçün ağır itki oldu. Qüdrətli aktyorun və rejissorun bizə irs qoyub getdiyi sənət ənənələri bu gün də aktuallığını qoruyur, Azərbaycan və gürcü xalqlarının çoxəsrlik dostluğu, habelə onların gürcü mədəniyyəti ilə əlaqələri kontekstində öz bəhrəsini verir.

Tiflis ədəbi-ictimai mühitində Azərbaycan çoxşaxəli mədəniyyətinin təbliğ edilməsində əvəzsiz rolu və xidmətləri olan sənətkarın yaratdığı unudulmaz səhnə obrazları ürəyimizdə, xəyalımızda daim yaşayır və yaşamaqdadır.

**Almaz YURDSEVƏR**

### *Hörmətli Binnət müəllim!*



*Son illərdə Gürcüstanda ona dilimizdə nəşr olunan mətbuat orqanlarının sayı çoxalsa da, ancaq onlar tələbkar oxucuların tələbatını ödəyə bilmir. Onra görə ki, bu mətbuat orqanlarının nəşrində maliyyə çətinliyi üzündən tez-tez fasilələr yaranır. Belə çətinliklərlə üzləşdiyinə görə onların əksəriyyəti buna tab gətirməyərək nəşrlərini dayandırmaq məcburiyyətində qalırlar. Son zamanlarda müəyyən çətinliklərlə üzləşməsinə baxmayaraq, əməkdaşlarının gərgin əməyi sayəsində “Gürcüstan” qəzeti özünün şanlı tarixi ənənələrinə sadiq qaldı.*

*Təxminən bir əsrə yaxındır ki, nəşr olunan bu qəzetin günümüzdə də işıq üzü görməsində onun uzun illərdir ki, sadiq əməkdaşlarından biri İslam Hacı oğlunun böyük əməyi xüsusi ilə qeyd edilməlidir. Onun redaksiyada kiçik bir vəzifədən bu gün onun redaktoru vəzifəsinə yüksəlmiş 45 illik qəzetçilik fəaliyyətini təkcə biz yox, hətta ölkə rəhbəri də yüksək qiymətləndirmişdir.*

*Elə bu yaxınlarda onun "Gürcüstanın əməkdar jurnalisti" kimi yüksək və şərəfli ada layiq görülməsi hamı kimi, öz həmyerlilərini də çox sevindirir.*

*Hörmətli redaktor, xahiş edirik ki, Marneuli rayonunun Keşəli ümumi məktəbinin kollektivi adından səmimi təbriklərimizi dəyərli eloğlumuz, gözəl insan, mahir jurnalist İslam Hacı oğluna çatdırarsınız. Əvvəlcədən təşəkkürümüzü bildiririk.*

## Bildiriş

***Marneuli rayonundakı 3 saylı Azərbaycan ümumi məktəbinin direktoru Gülnarə Dərgallı həmin məktəbin 1965-ci il məzunlarını görüşə dəvət edir.***

***Görüş bu il mayın 17-də, saat 14:00-da 3 saylı Azərbaycan ümumi məktəbində keçiriləcək.***

# Kamal Abdulla Tbilisi Dövlət Universitetində "Azərbaycan multikulturalizmi" mövzusunda məruzə edib

***Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdulla İvane Cavaxışvili adına Tbilisi Dövlət Universitetində (TDU) multikulturalizm siyasətindən bəhs edən məruzə ilə çıxış edib.***

APA-nın Gürcüstan bürosunun məlumatına görə, tədbirdə Gürcüstan prezidentinin etnik məsələlər üzrə müşaviri Sofiko Şamanidi, Azərbaycanın Gürcüstandakı səfiri Azər Hüseyn, professor David Qoçeridze, gürcü alimləri, universitetin professor və müəllimləri, səfirlik əməkdaşları, həmçinin tələbələr iştirak edib.

Universitetin professoru David Qoçeridze tədbiri açaraq, sabahdan TDU auditoriyalarında "Azərbaycan multikulturalizmi" fənni ilə bağlı layihə həyata keçiriləcəyini və tələbələr qarşısında ilk mühazirəni Kamal Abdullanın oxuyacağını bildirib.



Kamal Abdulla görüş iştirakçılarını salamlayıb, 3 mart - Ana Günü münasibətilə gürcü qadınlarını xüsusi olaraq təbrik edib. Sonra o, "Azərbaycan multikulturalizmi" mövzusunda ilk mühazirəni professor David Qoçeridze ilə birlikdə oxuyacaqlarını bildirib: “Azərbaycan multikulturalizmi” fənninin bir çox Qərb ölkələrində və İ.Cavaxişvili adına TDU-da, o cümlədən qarşıdakı semestrdə Bolqarıstan, Litva, İtaliya, Belarus, Almaniya və sonra Rusiya universitetlərində tədrisinə başlanacağını bildirib: "Biz eyni zamanda Azərbaycanda Gürcüşünaslıq fənninin tədrisinə başlayacaq, həmçinin Tbilisi universitetlərində Bakı Slavyan Universitetində "Gürcüşünaslıq" və "Gürcü dilinin və mədəniyyətinin öyrədilməsi", həmçinin Gürcüstanda "Azərbaycanın keçmişi, müasir həyatı və gələcəyi" adlı layihələr həyata keçirəcəyik".

K.Abdulla multikulturalizm layihəsinin elmi, siyasi və sosial layihə olduğunu bildirib: "Azərbaycanın 8 universitetində bu fənn tədris olunur. Azərbaycan dünyanın elə bir ölkəsidir ki, müxtəlif mədəniyyətləri və dinləri birləşdirən dövlət olaraq bütün sahələrdə inkişaf edir, burada müxtəlif konfessiyalar bir-biri ilə dinc münasibət şəraitində yaşayırlar. Gürcüstanda da belə münasibət var".

Gürcüstanın etnik məsələlər üzrə dövlət müşaviri Sofiko Şamanidi Azərbaycanın çoxmillətli ölkə olduğunu bildirib. O, "Gürcüstan multikultarizmi" fənninin də yaradılmasını təklif edib.

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfiri Azər Hüseyn və professor Appolon Saqinadze də çıxış ediblər.

Sonda Kamal Abdulla iştirakçıların suallarını cavablandırıb.

# I Avropa Oyunları medallarının təqdimat mərasimi keçirilib

***2015-ci il iyunun 12-dən 28-dək Bakıda keçiriləcək I Avropa Oyunları medallarının təqdimat mərasimi təşkil olunub.***



Tədbirdə qızıl, gümüş və bürünc mükafatlar təqdim edilib.

Medalların üzərində dekorativ Bakı-2015 brendinə uyğun şəkildə hazırlanmış unikal təsvirlər əks olunub.

Mükafatın mərkəzində Avropa Oyunlarının loqotipi olan tərtibat dinamik, heyrətamiz və zəngin mədəniyyətə malik ev sahibi şəhərin metaforasıdı. Medalın əks tərəfi isə Avropa Olimpiya Komitəsinin emblemini və mətn simvolunu əks etdirir.

Medalların tərtibatı Soçi-2014 qış olimpiya və paralimpiya oyunlarının medallarını hazırlamış məşhur zərgər brendi Adamasla azərbaycanlı rəssam Nərgiz Hüseynovaya məxsusdu. Medallar “Azersuvenir” şirkəti tərəfindən Azərbaycanda istehsal ediləcək.

Bakı-2015-in startına 100 gün qalması ilə əlaqədar keçirilən tədbir zamanı çıxış edən Avropa Oyunları Əməliyyat Komitəsinin Əməliyyatlar üzrə baş direktoru Saymon Kleq medalların tərtibatının təqdim olunmasına da münasibət bildirib: “Avropa Oyunları medallarının bədii tərtibatını ictimaiyyətə təqdim etməklə, 100 günlük gerisayımın başlanğıcını qeyd etmək və Bakıda yarışacaq qitənin ən güclü idmançılarının uğurlarını səbirsizliklə gözləmək də həyəcanvericidi. Biz idmançıları özlərini daha yaxşı göstərə biləcəkləri arenalarla təmin edəcəyik. Mən bu göz oxşayan medal tərtibatlarının onların cəhdlərinə qarşılıq verəcəyinə inanıram”.

Təqdimetmədə bürünc medal Teymur Məmmədovun, gümüş İlham Zəkiyevin, qızıl isə Namiq Abdullayevin boynundan asılıb.

# Gürcüstanda Məmmədov soyadı gürcü soyadlarından sonra ikinci yerdədir

***Gürcüstan Mülki Reyestr Agentliyinin yaydığı məlumata görə, ölkədə gürcü soyadlarından sonra Məmmədov soyadı ikinci yerə çıxıb.***

Agentliyin açıqlamasına əsasən Tbilisidə ən çox Maysuradze, Tsiklauri, Qelaşvili soyadında adam yaşayır. Ölkə üzrə ümumilikdə 10 eyni soyad irəlidə gedir. Məlumata görə, Beridzelər-19 765, Məmmədovlar-19 294, Kapanadzelər-3 914, Qelaşvililər-13 505, Əliyevlər-13 118, Maysuradzelər-12 542, Giorqadzelər-10 710, Lomidzelər-9 581, Tsiklaurilər-9 499, Qvaratsxelia-8 815 soyadları qeydə alınıb.

Abxaziyada üç soyad çoxluq təşkil edib. Şonia soyadı-2 250, Qoqoxia-2 232, Kvaratsxelia-2 117. Acarıstanda da üç soyad daha çoxdur. Burada ən çox soyad Beridzelər-11 935, Bolkvadzelər- 6 261, Diasamidzelər-5 050 soyadı təşkil edir.

Qeyd edək ki, yalnız Kvemo Kartli bölgəsində ən çox Məmmədov soyadında sakin yaşayır. Samtsxe-Cavaxetiyada isə-2 265 eyni soyadı olan erməni əhalisi yaşayır.


## E L A N

“Marneuli Event”sin təşkilatçılığı, AMM-in gənclər şöbəsinin və “Post News”-un informasiya dəstəyi ilə martın 22-də Gürcüstanın Marneulidəki Nəriman Nərimanov adına Mədəniyyət Evində gənc reper ZİKO-nun (ZS) “Sevirəm onu” adlı solo konserti keçiriləcək. Konsert Novruz bayramına həsr olunub. Konsertdə iştirak etmək istəyənlər əvvəlcədən aşağıdakı əlaqə nömrələrinə zəng vuraraq biletləri sifariş və ya təşkilatçı İlkin Hüseynova müraciət edə bilərlər.

***P.S: Novruz Bayramı ilə əlaqədar olaraq bu konsertə “5 bilet alana 1 bilet hədiyyə” aksiyası keçiriləcək.***

**Əlaqə tel: 593 12 33 46**



# Rəsulzadənin ölümündən 60 il keçir

***Martın 6-sı Şərqdə ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadənin anım günüdür.***



M. Ə. Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində anadan olub.

Azərbaycanın görkəmli dövlət və ictimai xadimi, dahi mütəfəkkiri, siyasətçi və publisisti, Azərbaycan siyasi mühacirətinin liderlərindən biri olan Rəsulzadə Azərbaycan milli istiqlal hərəkatına başçılıq edib.

Onun "Bir kərə yüksələn bayraq bir daha enməz!" ifadəsi XX əsrdə Azərbaycanda müstəqillik hərəkatının şüarı olub.

1902-ci ildə on yeddi yaşında olan M. Ə.Rəsulzadə "Müsəlman gənclik təşkilatı"nı yaradıb. Bu, XX əsrdə Azərbaycanda rus müstəmləkə üsul-idarəsinə qarşı gizli mübarizə aparan ilk siyasi təşkilat idi.

Rəsulzadə 1911-ci ildə Müsavat Partiyasına üzv qəbul edilib və 4 il sonra Müsavat Partiyası Mərkəzi Komitəsinin sədri seçilib.

1917-ci ilin payızında M.Ə.Rəsulzadə Rusiya parlamentinə Azərbaycan və Türküstandan millət vəkili seçilib. 1918-ci il mayın 26-da Zaqafqaziya seymi daxili fraksiyaların çəkişmələri nəticəsində ləğv olundu. Həmin ayın 27-də seymin müsəlman fraksiyasına daxil olan müxtəlif partiyaların üzvlərindən ibarət olan Azərbaycan milli şürası yarandı. Səs çoxluğu ilə M.Ə.Rəsulzadə milli şüranın sədri seçildi. 1918-ci il mayın 28-də bütün ölkələrin radio stansiyaları və qəzetləri Azərbaycan istiqlaliyyətinin elan olunmasını dünyaya yaydılar. Fətəlixan İsgəndər oğlu Xoyskinin başçılığı ilə Azərbaycan Demokratik Respublikası hökuməti təşkil olundu. Beləliklə, Azərbaycan xalqı nəinki türk xalqları arasında, həmçinin, bütün islam şərqi aləmində ilk dəfə olaraq respublika qurdu. İyunun 17-də Azərbaycan milli şürasının iclasında M.Ə.Rəsulzadə öz alovlu nitqində deyirdi:

"Dünya müharibəsi və Rusiya inqilabının təsiri ilə yeni doğulmuş və həyat siyasətinə ilk qədəm basmış olan Azərbaycan qayəsi əhatə olunmaz mühüm dəqiqələr keçirir. Bu yeni türk nüzad siyasəti rişə və buluğ bulub da millətlər zümrəsinə vəsail-həyat olaraq girə biləcək, yoxsa sısqa çocuq kimi südəmər halında tərki-həyat edəcəkdir? İştə bütün zehinləri işğal edən bir məsələ! İştə bir zaman ki, müqəddərat milliyi əllərinə alanlar üçün Azərbaycan nüzadini tələf etdirməmək kimi müşkül, fəqət müşküllüyü ilə bərabər şərəfli bir vəzifə və məsuliyyət tərtib ediyor".

Bakı Dövlət Universitetinin yaranması da M.Ə.Rəsulzadənin adı ilə bağlıdır. Bu məsələ ətrafında o, bir neçə dəfə Azərbaycan Parlamentində çıxış etmiş və universitetin açılmasını qəti tələb edib.

M.Ə.Rəsulzadə 1955-ci ilin martın 6-da Ankarada dünyasını dəyişib.

# Yaşar Kamal vəfat etdi

***Türkiyənin məşhur yazıçısı Yaşar Kamal vəfat edib.***



Yazıçı 92 yaşında, İstanbulda müalicə aldığı xəstəxanada keçinib. Yaşar Kamal 1 aydan çoxdur ki, ağciyər infeksiyasından əziyyət çəkirdi.

Artıq itki ilə bağlı Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və baş nazir Əhməd Davudoğlu yazıçının xanımı Ayşə Semiha Babana başsağlığı veriblər.

Qeyd edək ki, Kamal Yaşar "Nobel"ə namizəd olmuş ilk türk yazıçısı kimi tarixə düşüb. O, 1984-cü ildə Fransanın nüfuzlu "legion" ordeninə layiq görülüb. Yazıçının Türkiyənin cənubundakı feodal münasibətlərdən bəhs edən "İncə Məmməd" romanı 40-dan çox dilə tərcümə edilib. Yaşar Kamal ümumilikdə 20-dən çox romanın və bir sıra hekayələrin müəllifidir.

# Süsən-Sünbüldə renessans

## (raffiner)

Mirzə Levon-Məlik Şahnazaryan da yazırdı, Mirzə Simon Simonişvili də, arada-sırada Mirzə Tanrıtanımaz da yazırdı ki, bəs deməzsənmi, Süsən-Sünbüldə (Azərbaycan xalq mahnısı ilə ad eyniliyi zərurət deyil, təsadüfdür) tərəqqi əlamətləri yoxdur. Süsən-Sünbül özünün az qala zülmət dolu orta əsrlər dövrünü yaşayır; adamları mürgü döyür, oyanmaq istəmirlər və sairə və ilaxır...

Sonra elə ki, bizim gənc "obrazovannılar" (ifadə unudulmaz Mirzə Cəlil Məmmədquluzadənindir) peyda oldu və elə ki, bizim gənc "obrazovannılar" nəinki Süsən-Sünbülü, eləcə də cəmi Borçalını bataqlığa bənzətdilər, onda belə məlum elədi ki, sən demə, Mirzə Levon-Məlik Şahnazaryan da, Mirzə Simon Simonişvili də, hətta "milli metr" olan Mirzə Tanrıtanımaz da bizim gənc "obrazovannılar"ın yanında tazəpərəstan toya getməli imişlər.

Əlbəttə, Allahın altı həmişə böyükdür və Allahın bu böyük altında da hamıya yer var: Mirzə Levon-Məlik Şahnazaryana da, Mirzə Mikroba da, Mirzə Virusa da, mərdə də, namərdə də, Mahmud Kaşğariyə də, Təhləli Novruza da, madam Bovariyə də, Mirzə neçə nəfərə də, Coşqun Cəfərə də, üstəlik, bizim gənc "obrazovannılar"ın yaratdığı "renessans.ge" saytına da...

Bəri başdan deyim ki, "renessans.ge" saytının öz qınını-çanağını bəyənməyən, "kiflənmiş ənənələr"dən söz açan qadın yazarları ilə işim yoxdur. Ona görə ki, bizdə "eybəcərlər anası"nın olduğunu nə eşitməmişəm, nə də görməmişəm. Xatırladıram: Mopassanın "Eybəcərlər anası" adlı novellasında qadın qeyri-qanuni hamiləliyini gizlətmək üçün qarnına taxta-tuxta bağlayır və nəticədə eybəcər uşaq doğulur. Eybəcər uşağını sirk truppasına baha satan (axı tamaşaçılara kef vermək üçün eybəcərlər-təlxəklər də lazımdır) qadın sonralar bunu qazanc mənbəyinə çevirərək hər dəfə daha eybəcər uşaq dünyaya gətirir.



Burası da var ki, Mirzə Səməndər (Allah unudulmaz Cəfər Cabbarlıya rəhmət eləsin) bu yerdə irad tutur ki, yaxşı, bir halda ki, bizdə "eybəcərlər anası" yoxdur, bəs onda bu qədər şikəst şirkçi-sirkçi inkvizitor haralardandır?..

Mirzə Qələm də, mən də hər nə qədər pozitivlərlə danışmağa çalışsaq da Mirzə Səməndər bunu da əlhəzər əlavə edir ki, bəs deməzsənmi, hətta Andre Jidin (normativ etnonim bir başqa) "dişi canavarları" olsa-olsa öz cildini dəyişə bilər, əxlaqını yox. Əstəğfürullah! Sadəcə olaraq, hətta ekstrim, donosbaz, ceynə-tüpür mətnlər doğan qadın yazarlara da dözümlülüyümüzə rəğmən, Mirzə Qələm də, mən də hesab edirik ki, Renessans dövründə qadınlar hansı xəstəliklərdən əziyyət çəkirlərmişsə, indinin özündə də, əsrlər ötdükdən sonra belə, vəziyyət dəyişməz qalıb. Yəni hansı minvalla ki, Bottiçellinin, Leonardo da Vinçinin, Rafaelin, Rubensin, Rembrantın, Velaskesin qadın rəsmlərinə baxmaqla Renessans dövrü qadınlarının xəstəliklərini müəyyən etmək olur, təxminən həmin minvalla da ekstrim yazı müəllifi olan "renessansçı" və faciələr dolu "facebookçu" qadınların müəllifi olduğu yazılarda "Şarli Ebdo"nun ("Charli Hebdo") Süsən-Sünbül variantını sezməmək olmur. Əks halda, onlar gündəmdə həm də kəmbəha və küfran karikaturaların köməyi ilə qalmaq istəyərdilərmi? Hər nə isə, Azər Abdulla demiş, "Güldüyün bəs deyilmi, Cokonda?"

Mirzə Qələm də Mirzə Səməndəri arada-sırada salam-dua sakitləşdirmək üçün deyir ki, tufarı bu yaşda dağılhadağıl olan bu bəzi gənc mirzələrinki bəlkə elə Tufarqanlı Abbaslıqdır? Yəni *"...bir zamana gəlibdir, ala qarğa şux tərlanı bəyənməz... ananı, qaynananı bəyənməz... dindirərsən heç insanı bəyənməz..."* və sairə və ilaxır.

Amma kim bilir?..

Müxtəsəri, Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın ucqar və arazbarı sözüm "renessans.ge" saytında Baş nazir Qaribaşviliyə ünvanlanan "açıq məktub"a imza atmış iki nəfərə – Coşqun Cəfərə və Səyyah Vaqifədir.

...Coşqun və Vaqif!

Biz – Mirzə Qələm də, mən də sizi şair kimi tanıyırıq. Mən hətta Coşqunu tənqidbazlıq-kritikanlıq və absurdlardan heç olmasa cüzi çəkindirmək üçün ona "Əmanət düsturu" da yazdım. Çünki şair lovğalıq edə bilər, "bataqlıqda" yaşaya bilər (axı o, bataqlıqda yaşaya-yaşaya Aya-ulduza baxmağı da bacarır), sevdiyi Məryəm üçün donuza da gedə bilər, qadağan çaxırdan da dadar, amma öz dilinə, məktəbinə qarşı çıxsa, papağı ... hərmədə qalar...

Mən iyirmi üç, Mirzə Qələm iyirmi yeddi il məktəbdə çalışdıq. İndi mənim məktəbim bağlanıb. Sözün bilirsinizmi nədədir? 1989-cu ilin məlum hadisələrindən sonra bilirsinizmi Yırğançayda, Qaraçöpdə, Faxralıda, Sadaxlıda, Nəzərlidə hansı müəllimlər nələrin hesabına o məktəbləri saxladılar? Onlar yas yerlərinə pul əvəzinə xəzəl yazdırdı, onların cındırından cinlər hürkdü, "heyrət"dən ağzı açıq qalmış bir cüt ayaqqabı ilə həm yayı, həm də qışı yola verdilər. Onların başına qaramat yağdıranlar çox oldu ki, bəs deməzsənmi, kül başlarına, yaşamağı bacarmırlar, Dubayın yolunusa tanımırlar. Amma onlar dönmədilər; çünki onlar müəllim idilər. İndi onlar "renessansçı"ların dediyitək, sən demə, "çox konservativ", "Gürcüstanın mədəni həyatından bixəbər", "dünyəvi dəyərlərdən uzaq" artıq adamlar imiş. Gəl müəllimləri belə yandır, adını da "müqəddəs inkvizisiya" qoy. Bu artıq yaramazlıqdır! Baxmayaraq ki, bütün tarixi dövrlərdə, o cümlədən, Renessans dövründə Xeyirlə Şər, İntibahla inkvizisiya yan-yana gedib. Amma söhbət hərfdən, əlifbadan, məktəbdən gedəndə gərək, o necə deyərlər, arada başını qaldırıb Allaha da baxasan.

Coşqun və Vaqif!

Kaş sizin də imzaladığınız o məzalim məktubu aramicə, ibranicə, ermənicə, gürcücə, ərəbcə, yəcuc-məcucca, islandca, əndər-döndər əndrəbanicə, fransızca, moltanıca oxuyaydıq, amma ana dilində-Azərbaycan türkcəsində oxumayaydıq. Çünki şair öz dilinin feilidir, əlbəttə, nitq hissəsi anlamında feilidir, daha durub fitnə-feil deyil! İnternet mediasında etik normalar bu cürmü gözlənilir? Müəllimi "monqol" hesab eləmək cəhənnəmlik deyilmi?

Hər hansı "Mamedov", hər hansı "Səddamov" bilməsə də siz bilirsiniz ki, Renessans dövrünün siması, dünyəvi və dirçəliş tərəfi insana önəm verməsi, bəşəriliyi və humanizmi önə çıxarması idi. Allahı and yerinə çevirmirəm. Amma, vallah, bu "renessans"ın, bu "yenidən doğulma"nın o Renessansla heç bir, sözümün toz-tozanaq təkrarına qayıdıram, heç bir əlaqəsi yoxdur! Məgər insanı, özü də müəllimi, özü də zehni əməyi ilə dünyaya Şekspiri, Koperniki, Sabiri – siyahını Zəncandan Ərzincana, Dərbənddən Səmərqəndə qədər uzatmağa ehtiyacmı var? – vərəni aşağılamaq, mətndən dolayı, həm də katikaturalarla bəzəyərək aşağılayıb sındırmaq cəhdləri ancaq və ancaq iblis və təqvasızlar işi deyilmi? Bizim məktəblərimizdə – Qori seminariyası da daxil olmaqla – Nərimanov yetişib, Abdulla Şaiq yetişib, Zahid Xəlilov, Zəlimxan Yaqub boy verib, Tomas de Tarkvemada yetişməyib, inşallah! İndi bu qədər "kal", bu qədər "nadan" hansı parnikdən, hansı "şitillik"dən gəlib? Bu məktəblik, müəllimlik deyil! Qətiyyən!

Coşqun və Vaqif!

Burası da var ki, Avropada Renessans "qara ölüm" adlandırılan taundan sonra yaranmışdı; yəni müsibət və fəlakətlərdə o dövr insanının şüuru qəflətən dəyişib belə işıqlanmışdı. Yəni o dövr insanının beyninin daxili kompası yamanlığa yox, yaxşılığa, kritkanlığa-tənqidbazlığa-cəfəngiyyata deyil, Mənaya tuşlanmışdı! İndi gənc "obrazovannılar"ın bu cür yerli taun xəstəliyi yaymaq təşəbbüsləri də azından insafsızlıq və imansızlıqdır.

... Yazıqlar olsun!

**P.S.**

***"Bu yaxınlarda qəzetlər yenə də yazırdı ki, Mona Lizanı Luvrdan Yaponiyaya aparırlar. Onu beş gəmi müşayiət edir, güllə keçirməyən şüşələr altındadır". Bilmirəm Azər Abdullanın yazısından gətirdiyim bu nümunənin mənim məktəbimlə – "beyti və kəlamı" (Seyid Əzim Şirvaninin ifadəsidir) dağılan məktəbimlə hansı arazbarı əlaqəsi var? Bir onu bilirəm ki,günlərin bu günündə məktəblərimizin belə müdafiəsiz-ufaq olmağında hazırda müəllimlik eləyən şair qardaşlarımın – Yunis Novruzun, Afiq Muxtaroğlunun, Fatma Aslanın, Fərman Qulamoğlunun, Elmuraz Köçərinin zərrəbin zərrə qədər də olsun günahları yoxdur!***

**İbrahimxəlil**

# Yeni nəşr

*Şair-publisist, yazıçı-araşdırmaçı Elbəyi Cəlaloğlunun oxucularla yedinci görüşü olan bu kitabında son dövr yazdığı şeirləri dərc olunub. Şair insanı haqqa səsləyən şeirlərində fəlsəfi fikirlərini də oxucu ilə bölüşür. "3 saylı Bakı Mətbəəsi" ASC-də cap olunmuş bu maraqlı kitabın redaktoru Elgün Mehdibəylidir. Kitab 500 tirajla nəşr olunub.*




# Moskvada Nəriman Nərimanov haqqında kitab nəşr edilib

*Professor Rudolf İvanovun müəllifi olduğu "Ölüm-dirim savaşı. Açılmış arxivlər Nəriman Nərimanovun Azərbaycanda bolşevizm təhriflərinə qarşı mübarizəsinin sirlərini üzə çıxarır" kitabı 10 bölmədən ibarətdir.*

*Monoqrafiyaya N.Nərimanovun nadir nəşrlərdən aşkar edilmiş məqalə və nitqləri, o cümlədən "Leninsiz fəaliyyətimizin bir ili" adlı müəllifin sağlığında dərc olunmuş sonuncu əsəri daxil olunub. Kitabda təqribən 475 tarixi material yer alıb.*

*Nəşrin ön sözünün müəllifi AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylidir.*




# ATA BORCU

*( Hekayə )*

Rayondan zəng vurub bildirdilər ki, atam ağır xəstədir. Ömrünün son günlərində mənimlə görüşmək istəyir. Onu da əlavə etdilər ki, bu gün özümü atama çatdırmasam, bir daha onun üzünü görə bilməyəcəyəm.

Əvvəllər də belə zarafatlar olmuş, anam məni görmək-görüşmək məqsədilə bu cür sıradankənar zarafatlar etmişdi, ancaq mən getməmişdim. Amma bu gün xəbəri eşidər-eşitməz içimdə bir narahatlıq, həyəcan baş qaldırdı.

Gecə yarıdan azca ötmüş evimizə çatdım. Maşını həyət qapısının önündə saxlayıb aşağı endim. Ayaq barmaqlarımın ucuna qalxıb həyətimizə boylandım. Ağacların arasında evimizin qaraltısını görəndə ürəyim sıxılan kimi oldu. Doğulub boya-başa çatdığım bu həyəti uzun müddət yaddan çıxardığım üçün daxili bir xəcalət təri məni basdı. Hənirtimi almış Alabaş qapının arxasında bir-iki ağız hürüb, səsini kəsdi.

İçəridən səs gəlmirdi. Bu sakitlik əsəblərimə mülayim bir sığal çəkib, az da olsa, məni sakitləşdirdi.

Əlimi uzadıb qapının cəftəsini açmaq, həyətə keçmək istədim. Ancaq nə qədər əlləşdimsə qapını aça bilmədim. Elə bil qapı mənimlə üz-üzə durub həyətə buraxmaq istəmirdi. Bir az geri çəkilib bütün yayı öz kölgəsi ilə həyətimizə sərinlik verən uca qayın ağacının zirvəsinə baxdım. Ağacın ən uca zirvəsində yuva qurmuş hacıleylək qanadlarını şappıldadıb, gecəni diksindirdi... və mən istədim ki, maşına oturub səhərin açılmasını gözləyim, həyət qapısı açıldı. Anam geyimli-gecimli halda orada dayanıb mənə baxırdı... Ona tərəf qaçıb onu ana-bala istəyi ilə bağrıma basdım.

...Səhər "təcili yardım"la gələn həkim atamı müayinə edib, xeyli fikrə getdi. Hərəkətlərindən və davranışlarından hiss etdim ki, məsələ çox ciddidir. Həkim uzaq qohumumuz olduğu üçün atamın xətrini çox istəyir, hər dəfə onu müayinədən keçirdikdən sonra deyərdi:

-Allahyar əmi, maşallah, top kimisən! Bizim Borçalının havası-suyu qədər insana xeyirli olanı heç yanda tapılmaz. Bax, onun sayəsində bu cür sağlam ürəyin, gümrah canın var. Bu gün onun belə fikirli olması, ciddi dayanması məni qorxutdu. Anam da deyəsən, təşviş keçirir, həyəcanlanırdı.

O, üzünü Bilal həkimə tutub soruşdu:

-A bala, ürəyimi üzmə, qadan alım, nə olub, xəstəliyi ciddidirmi?

Bilal həkim anama tamaşa edə-edə susub durdu. Onun ciddi baxışı qarşısında hamımız susub işin sonunu gözləməli olduq. Həkim ilk yardımını edib saatına baxdı...və cib dəftərçəsinə nəsə qeyd edib getmək üçün hazırlaşdı.

-Axşam gəlib baxacağam. Tez-tez otağın havasını dəyişdirin, sakitlik olsun, inşallah yaxşı olar-deyib getdi.

Düzünü deyim ki, atamın xəstələnib yatağa düşməsində mənim də günahım olub. Cavanlıq edib ona qarşı etinasız olmuşdum, dediyi hər sözü-məsləhəti qulaqardına vurub, soyuq münasibət bəsləmişdim. Mənə ehtiyacı olduğunu bilə-bilə buraxıb getmiş, ildə bir dəfə də olsun axtarmamışdım. Halbu ki, qulluğunda durub hər cür fiziki ehtiyacına kömək etməliydim. Onun xəstələnib yatağa düşməsi elə bil məni ayıltmışdı. İndi bildim ki, səhvim böyük olub hər dəfə onu əsəbləşdirəndə sonunu fikirləşməmişəm.

Evimizə telefon açıb, onların vəziyyəti ilə maraqlananda hər dəfə atam deyərdi:- Allaha çox şükür, hər şeyimiz var, nigarançılığımız sizdəndi. Uşaqlara yaxşı baxın, qoymayın şəhər həyatı onları öz yolundan sapdırsın.

İnsan hər şeylə təmin olunanda, yaxşı yaşayanda, ehtiyacın nə olduğunu bilməyəndə, təkcə böyüklərə qarşı deyil, bütün dünyaya laqeyd münasibətdə olur. Gələcəkdə onların çiynində olan borcun ağırlığını bilmirlər. Oğlum, yüngül, əziyyətsiz yaşamaq adamı elə bu cür yaşamağa alışdırır... Bilin ki, həyatda yüngül yaşayış yoxdur, əgər varsa, bu da çox uzun sürməz...Uşaqlar kiçik yaşlarından zəhmətin, ehtiyacın nə olduğunu biləndə, onlar ayaq üstə durmağı bacarır, hələm-hələm zərbələrdən sarsımırlar. Çalışın övladlarımız körpəlikdən ata-baba yurduna bağlı olsunlar... Böyük-kiçik hörmətini saxlaya bilsinlər.

...İkinci gün atam özünə gəlib gözlərini açdı. Anam yanında əyləşib asta-asta atamın əllərini ovxalayır, mən də günahkar adam kimi sakitcə dayanıb ona tamaşa edirdim... Həmin gün atam ilk dəfə gözünü açanda başının üstündə anamı və məni gördü. O, məsum-məsum bir xeyli mənə baxdı və gözlərindən bir damla yaş tük basmış sifəti boyu axmağa başladı. Uşaq vaxtı elə hiss edirdim ki, atamdan güclü, ondan iradəli kimsə yoxdur.. Düşünməzdim ki, atam da ağlayır...



Uşaq vaxtı deyərdi: - Kişi nə qədər çətinliyə düşsə də ağlamamalıdır. Kişi ki, ağladı, demək hər damla göz yaşı onu bir az da sona yaxınlaşdırır...

Mən əlimdəki dəsmalla atamın yanağı boyu yuvarlanan göz yaşlarını silib, onu bu hala saldığım üçün üzrxahlıq etdim: - Sənə qurban olum, ata, nə edim ki, mənim indiyə qədər buraxmış olduğum səhfləri bağışlayasan?!... Nəzərlərini qaldırıb üzümə baxdı. Atamın həmişəki ciddi baxışlarının yerində məsum, mülayim və səmimi bi cöhrə ilə rastlaşdım.

Mən onun qabarlı əllərini dodaqlarıma yaxınlaşdırıb, yatağının yanında dizə çökdüm. O da sol əli ilə saçlarıma yüngül bir sığal çəkib, əlini başıma qoydu və nəzərlərini tavana zillədi. Mən öz içimə çəkilib susmuşdum.

İndiyə qədər ona olan soyuq münasibətim və laqeydliyimə rəğmən çox peşman olmuşdum. Bilirdim ki, indiyə kimi ona qarşı olan soyuq münasibətim və laqeydliyim bu keçən illərdə öz işini görmüş, atam xəstələnib yatağa düşmüşdü. Bilirdim ki, ona qarşı isti və səmimi münasibətimi görüb kövrəlibdi. Bu kövrəkliyin nəticəsi olaraq ağlayır. İndiyə qədər məndən bu səmimiyyəti görmədiyi üçün indi bu hisslərin altında göz yaşı tökür. İndiyə kimi həyata, valideyinlərimə baxışım tamam fərqli olub. Bəzən elə olub ki, var-dövlət, pul yığmağa başımız qarışıb. Bilə-bilə ki, pul yığanlara, var-dövlət hərisi olanlara atam üzünü tutub belə deyərdi:

-Yesən dadın, versən adın, yığsan yadındı...

Hərdən oturub fikirləşirəm — ilahi, ata-babalarımızın yadında, yaddaşında nə qədər dərin mənalı sözlər, kəlamlar var...

Keçən bu illərdə anam da mənəvi zərbə almışdı. Amma o, çətinliklərin mənəvi yükünü kürəyinə şələləyib daşımış, bu günə qədər ayaq üstə dayana bilmişdi. Analar dözümlü olur. Onlar çətin anlarda ağlayaraq dərdlərini göz yaşları ilə çıxarır, yüngülləşirlər. Biz mətin olmağı onlardan öyrənməliyik, onlar kimi dözümlü olmalıyıq.

Atam hərdən zarıyır, ağır-ağır nəfəs alır, köksü körük kimi qalxıb enirdi. Onun çəkdiyi əzab-əziyyəti sanki anam yaşayırdı. Göz qapaqlarını ağır-ağır qaldırır, hər dəfə də yumanda sifəti boyu sıralanıb gedən göz yaşları ürəyimi yandırır, mənə əzab verirdi. Bu illər uzunu onlardan uzaq düşdüyüm, yanlarında olub fiziki və mənəvi dəstək olmadığım üçün için-için özümü danlayırdım.

Birdən atamın sifəti nurlaşdı. Sanki sevinirmiş kimi rəngi açıldı və qırıq-qırıq:

-Uşaqları gətirmisənmi?-dedi. Mən cavab verənə kimi anam özünü çatdırıb:

-Gətirib, ay kişi gətirib! Sənə əziyyət verməsinlər deyə bibiləri ilə görüşməyə gediblər. Bir az özünə gəl, axşam gəlib görüşərlər...

Anam , ömründə birinci dəfə idi ki, bil-bilə atama yalan danışırdı. Sonra da dəsmalla atamın alnında puçurlanmış tər damcılarını silib müəmmalı şəkildə üzümə baxdı. Bu baxışlarda mən hansı məzəmmətlə rastlaşdım, onu sözlə ifadə edə bilmirəm, bir onu bilirim ki, nə atama, nə də anama lazım olan qədər oğulluq etməmişəm. Onlar nə əziyyətlə qəpik-qəpik, manat-manat qazanmış olduqları pulla məni böyüdüb, oxutdular. Ali təhsil aldım, işlədiyim şəhərdə məni tanıdılar, hörmət etdilər. Amma mən onları olduqları kimi tanımadım, qulluqlarında durub, övlad borcumu qaytara bilmədim.

Yadıma gəlir, mən beş yaşında olanda sol ayağım yanmışdı. Yayın isti günlərindən biri olmasına baxmayaraq, atam məni dalına şələləyib dörd kilometr uzaqda olan qəsəbəyə apardı, ayağımı dərmanladıb, sarıdıb yenidən geri, evimizə gətirdi. Bu, neçə dəfə təkrar olundu, yadımda deyil.

Amma, onu bilirəm ki, hər dəfə atam məni sevə-sevə, oxşaya-oxşaya aparır,yaram məni incitməsin deyə özü necə əziyyətlər çəkməli olurdu...

Bu keçən illərdə dəbdəbəli şəhər həyatı, rahat yaşamaq və adamların saxta gülüşləri başımı qatmışdı.

Dünyada borc çoxdur, Vətən borcu, pul borcu, el borcu, qonşuluq borcu,- daha nə bilim nə borcu, nə borcu...Amma bunlardan başqa bir müqəddəs borc da var-ata-ana borcu. Saydığımız borcların hamısına laqeyd yanaşmaq, ondan imtina etmək, əvəzini qaytarmamaq olar və bunun üçün səni olsa-olsa, tənbeh edər, qınayarlar. Amma, ata-ana borcunu qaytarmasaq bilirsinizmi nə olar?! Dünya dağılar, insanlıq, bəşəriyyət məhv olar-Tanrı bizdən üz çevirər, küsər...

Ona görə biz ata-ana borcunu ödəməliyik. Əgər bunu etməsək, ömrümüz boyu özümüzü gözü kölgəli hesab edəcəyik- mənim kimi...

Atam yatağının içində azca dikələrək nəzərlərini pəncərədən harasa dikib, kimi isə axtarır kimi döyükdü. Anam irəli durub sağ qolunu onun kürəyinə saldı, daha da dikəlməsi üçün kömək etmək istədi.

-Bir az döz, hər şey yaxşı olacaq, sağalacaqsan. İndi həkim də gələr- nəzərlərini qaldırıb mənə baxdı. "Amma həkim gəlmiş, son sözünü də demişdi"...İndi ümid ancaq allaha qalırdı...

**Əli Abbas**
*Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü*

Axtarışlar, tapıntılar.

# Unudulmuş el ozanı xatirələr işığında



III məqalə

*Xatirələr dindirəndi, dinəndi,*
*Hər nə varsa xatirəyə dönəndi.*
**Z.Yaqub**

Hörmətli və əziz oxucular! Hər bir şəxs Allahın verdiyi ömür yolunun mərhələlərini eyni formada keçirir. Yəni hər bir adam uşaqlıq, gənclik, qocalıq dövrünü keçir. Ancaq çox təəssüf ki, hər birimiz ömrün enerjili dövrünü, xüsusən cavanlıq və gəncliyi əksər hallarda mənalı, xeyirli işlərə sərf etməyi nədənsə sonraya saxlayır, ya da unuduruq. Günlər, aylar, illər keçir, görülməli işlər isə yubadılır, zaman isə heç nəyə tabe olmadan gözləmir. Bir də göz açıb görürük ki, ay dadi bidad, artıq qocalmışıq, görəcəyimiz, yazacağımız işlər isə unudulub, yaddaşlardan silinib, lazımlı, dəyərli insanlar isə dünyadan köçüb, lazım olanı isə tanımaq, yazmaq üçün mənbə yoxdur, hər şey gecdir. Belə faktlardan biri də unudulmuş el anası, aşığı Qaratikənli Novruz İsə oğlu Məmmədovdur.

Aşıq Novruzun özündən çox məlumatlar almaq olardı. Əlbəttə, onun sağlığında, məclisləri keçirəndə, daima gözlərimiz önündə olanda, saatlarla söhbətlərinə qulaq asanda. Heç kim bunu etmədi. Şəxsən mən isə elə bilirdim ki, həmişə cavan, enerjili olacam, saz-söz dəryası, el aşığı Novruz da bizimlə olacaq, həmişə çalıb oxuyacaq, sazın, sözün işığında istəyimizi ondan alacaq, yazacağıq, gələcək nəslə ötürəcəyik. Amma belə deyilmiş. Şəxsən mən anlamadım ki, bu kişi aşıq Ələsgər torpağında, Göyçə mahalında dünyaya gəlib, oranın havasını udub, suyunu içib. Bir də gözümü açıb gördüm ki, ustad dünyadan köçdü, əlimizdə də yazmağa, gələcək nəslə çatdırmağa bir şey yoxdur. İndi də başlamışıq axtarmağa ki, görən kişilərin yaddaşında nə var? Tapdıqlarım da xatirələrdə qalan qırıq-sökük, natamam qoşma, gəraylı və bayatılar, kimlərəsə deyilmiş təriflər...

Aşıq dəfələrlə məktəbə mənim yanıma gələrdi, uşaqlarının necə oxuması ilə maraqlanardı, mən isə o fürsətləri əldən vermişəm. Onu da qeyd edim ki, ustadı görənləri, onun söhbətlərinə qulaq asanları indi barmaqla saymaq olar. Nə olsun? Çoxları artıq yaddaşlarını itirib. Bu zamanın hökmüdür. Xeyli vaxtdır aşığın haqqında kimin nə bildiyini axtarıb tapmaqla məşğulam. Sevindiricidir ki, onu tanıyanlar ustad aşıq olduğunu, məclislərdə səhərəcən dastan danışdığını səmimiyyətlə söyləyirlər. Amma qoşqularını unutduqlarını deyirlər. Bəzilərinin də yaddaşında yarımçıq, bir-iki satir, ya da bir-iki bənd şeir parçaları olur. Nə etmək olar? Dahi şair S.Vurğunun dediyi kimi:

*Hər kiçik sözün də öz dünyası var,*
*Yarımçıq olsa da mənasız olmaz.*

Bir aksioma kimi deyə bilərəm ki, hər bir aşıq öz zəmanəsinin, öz xalqının yetirməsidir. Onlar zəmanənin sazını çalır, sözünü oxuyur, layiqli insanlara, qədirbilənlərə təriflər deyir, dəyərləndirirlər. Bunların bə-ziləri az da olsa, az-az tapılan adamların yaddaşlarında, xatirələrində yenə də yaşayır.

**Haşiyə:**

Dəllər kənd sakini, 85 yaşlı Xıdırov Xıdır İsmayıl oğlunun dediklərindən: 1940-cı illərin əvvəlləri idi. 12-13 yaşım olardı. Dedilər ki, kənd sakini Aliskəndərov Məhəmməd Abbas oğlunun toyudur. Gəlin Ayna xanım Zvel Kveşi kəndindən gətirilir. Nəhayət, qara zurnanın səsi kəndə yayıldı, gəlin gəldi. Axşam aşıq Novruz gəldi, məclis quruldu, ağsaqqallar içəri dəvət olundu. Uşaqlar isə pəncərədən aşığın çalıb-oxumasına tamaşa edirdik. Aşığa "Novruz və Qəndab" dastanından danışmaq xahiş olunmuşdu. Aşıq səhərə qədər danışdı, oxudu, uşaqlar da dinlədi və s.

Xıdırdan başqa bir xatirə: Qaratikən kəndində sazbənd İslam İsrafil oğlunun bir məclisinə Aşıq Hüseyn Saraçlı dəvət olunmuşdu. Aşıq sözə başlarkən əvvəlcə Aşıq Novruzu yada saldı və dedi: Ay məclis üzvləri, rəhmətlik Aşıq Novruz sağ olsaydı, indi bu məclisi o aparardı. Mən, Aşıq Novruz, Aşıq Əmir (Allah hamısına rəhmət eləsin!), sonra Aşıq Əmirastan İranlı Məşədi Aşıq Hüseynə şagird olduq. Doğrudu, mənim yolum uzaq idi, ona görə çox az-az gəlirdim. Onu deyim ki, Məşədi Aşıq Hüseyn özü söz dəryası idi. O, bizim (şagirdlərin) hamımızdan çox Novruzu bəyənirdi. Onu çox zəkalı, qüdrətli, hər zaman sənətkarlığı, aşıqlığı yüksək səviyyədə icra edən şagird kimi qiymətləndirirdi. Ona görə də hansı kəndə məclisə dəvət olsa, bizim içimizdən yalnız Aşıq Novruzu özü ilə apardı. Deyərdi ki, uşaqlar, inciməyin Novruz yanımda olanda ən ağır məclisdə belə qorxum olmur. Bilirəm ki, o məni heç vaxt utandırmaz. Sifarişləri ipə-sapa düzüb, dinləyicilərə layiqincə çatdıra bilir. Özünü əsl ustad aşıq kimi aparır. Mən özüm də onun oxumasından, danşıq tərzindən ləzzət alıram.

Başqa bir xatirə: 50 ildir ki, Sumqayıt şəhərində yaşayan, 1936-cı il təvəllüdlü, Bolnisi rayonunun Ayorta kəndində doğulub böyümüş Süleymanov Xasay Nəbi oğlunun dedikləri: 13-14 yaşım olardı. Üç nəfər həmyaşıdımla Qaratikənə qarğıdalı oğurluğuna getdik. (Kəndimiz ora çox yaxındır). Elə yenicə sahəyə girmişdik ki, bir tazı dərhal hürə-hürə üstümüzə cumdu. Qorxudan bağırmağa, çığırmağa başladıq. Bizim və tazının səsinə qarovulçu özünü çatdırdı. Tazıya acıqlandı, o dərhal səsini kəsdi. Biz isə donub qalmışdıq. Mən isə onu tanıdım. Bu Aşıq Novruz idi. Çünki o atamla dost idi, hərdən bizə gəlirdi. Mən sevindim ki, məni döyməyəcək, həm də çox utandım, bilmirdim nə edim, xəcalətlənirdim. Qarovulçu bizi sorğu-suala tutdu. Mən Nəbi kişinin oğlu olduğumu dedim. Kişi isə "ay saqqalın ağarsın", demək mənim dostum səni mənim sahəmə oğurluğa göndərib? And-aman etdim ki, atam bilsə məni döyər, mən özüm gəldim. Dedik ki, bir neçə sütül qarğıdalı aparıb bişirək, yeyək. O, dedi ki, gəlin, istəyin, mən özüm verərəm, amma oğurluq etməyin. İndi isə hərənizə 3-4 dənə götürüb gedin. Məndən də atana salam-dua deyərsən. Ona, çox sağ olun əmi, deyib bir daha ora yön çevirmədik.

Xasaydan yenə xatirə: Ayorta kənd sakini, 50-60-cı illərdə öz zamanının çox hörmətli, tanınıb seçilən Mahmud Yaqub oğlu bir çox illər Bolnisi kolxozunun qoyun fermasının müdiri işləyəndə, 1 may gününü qeyd etmək üçün Aşıq Novruzu binəyə qonaq dəvət edir. Aşıq həmin gün sazını da götürüb gedir. Quzu kəsilir, çoban məclisi qurulur, hamı bardaş qurub süfrə ətrafında əyləşir, süfrəyə çoban bozartması, quzu kababı gəlir. Aşıq isə saz çalıb qoyun, quzu sürülərinə, çobanlara, müdir Mahmuda, sərkər Moruğa təriflər deyir, oxuyur, onları şənləndirir, güldürür.

Adətən aşıqlar hara olur-olsun, kimdə insani keyfiyyətləri görmüşsə, həmişə onları tərifləyib sevmişdir. Ona görə də "Aşıq xalqın sevgilisi, onun qəlbinə, ürəyinə daha yaxın sənətkardır" – demişdir Həmid Araslı.

Mən isə siz oxuculara Xasay Süleymanovun bu qoca vaxtında dediklərini çatdırmağı özümə borc bilirəm:

*Ay ariflər, yaxşı baxın,*
*Qoyun, quzu sürüsünə.*
*Var-dövləti aşıb-daşan,*
*Bu kolxozun var gücünə.*
*Gəlin birgə alqış deyək,*
*Biz Mahmudun qeyrətinə .*

*Mahmudun adı-sanı,*
*Tutub cümlə-cahanı,*
*Surfası Hatəm nanı,*
*İgid, çoban hər bir yanı,*
*Özü bir Rüstəm Zaldı.*

*Oxşarı var Koroğluya,*
*Hörmət eylər hər insana.*
*Görən heyran boy-buxuna,*
*Var ellərdə adı-sanı,*
*Sanki bir şahi-mərdandı.*

*Mahmudun beş çobanı,*
*Bir birindən xoş çobanı,*
*Dünyamalı baş çobanı,*
*Ağamalı qoç çobanı,*
*Hərəsi bir pəhləvandı.*

*Aşıq Novruz, tərif eylə,*
*Gördüyünü haqqa söylə.*
*Oxu, düşsün dildən-dilə,*
*Bu tarixi bir zamandı,*
*Yaşamalı bir dövrandı.*

"Unudulmuş el ozanı yaddaşlar işığında" adlı ilk məqalədə Qaratikən kəndində qarğıdalı sahəsində qarovulçu işləyən Aşıq Novruzun gözlədiyi sahədən oğurluq olduğu və bu hadisəyə aid aşığın qoşquları verilmişdir. İndi isə həmin qoşqulardan bir parça Xasayın yaddaşında kök atıb qalıbmış. Bu parça həmin məqalədə yoxdur. Xasay dedi ki, bu uzun bir dastan idi, mənim bildiyim isə budur.

Çox sağ olsun, bu da qənimətdir. Bu yerdə S.Vurğunun iki misrası yenə də öz yerinə düşür.

*Sətirlər yığılıb bir dastan olur,*
*Şitillər yayılıb bir orman olur.*

İndi isə Xasay Nəbi oğlunun dediyi bu natamam parçanı sizlərə çatdırıram.

*Maskviçlər dalbadala,*
*Qaratikənə sarı gedir.*
*Partkom, sədr qoşalaşıb,*
*Gedişləri xoşa gəlir.*
*Maskviçdən düşür sədr,*
*Tez dayanıb huşa gəlir,*
*O bilmir ki, boşa gəlir.*
*Alı dayı coşa gəlir,*
*Tez başlayır öz sözünə,*
*Şikayəti deyir sədrə:*
*Qarğıdalı yarı gedib,*
*Qaratikənə sarı gedib.*

Xasay Nəbi oğlu əlavə olaraq dedi ki, Arıxlı kənd sakini, həmişə Bolnisidə yaşayan Moruq Vəliyev Mahmudun sərkəri idi. Aşıq Novruz ona altı bəndlik bir qoşma demişdi. Moruq özü qoşmanı əzbər bilirdi. Məclislərdə onu aşığın özünə oxudardı. Moruğun oğlu Bakıda yaşayır, onu tapın. Mən bu işi aşığın oğlu Bayrama tapşırdım. O tapdı və cavabı bu oldu: Moruğun oğlu dedi ki, biz Bolnisidən köçəndə bəzi əşyaları atdıq, olsun ki, elə orada da qalıb.

Əziz saz və söz həvəskarları! Aşıq Novruz zəngin həyat təcrübəsinə, istedada, dünyagörüşünə malik bir el sənətkarı olmuşdur. O, hər vaxt xalqın dərdini, sevincini duymuş və bunu sazı, sözü ilə ifadə etmişdir. Aşığın yaradıcılıq dünyası, məktəbi, el-obaların toyları, saz, söz məclisləri olmuşdur. Onları başqa insanlardan fərqləndirən əsas cəhətlərdən biri çalmaq, oxumaq, söz qoşmaq olsa da, digər xüsusiyyətlərindən biri də pak niyyətə, aydan arı ürəyə, sudan duru hiss və duyğulara malik olmalarıdır. Onların özlərinə məxsus əxlaq normaları vardır. Aşıq Novruz da bu normalara həmişə sədaqətli olmuş, məclisləri bitirdikdən sonra, xüsusən kasıb ailələrdən heç nə ummaz, sazını götürüb "xoşbəxt olsunlar" – deyib gedərdi. Belə etmək aşığın sənətinin qədimdən yaradılmış qanunlarından biridir. Ustad babamız Aşıq Ələsgər də bir qoşmasında aşığı "ədəbin bilən", "pak oturan, pak duran", "nəfsini yandıran" ləyaqətli insan sanmışdır.

Əziz oxucular! Dünən deyilən yaxşı söz, sabah və gələcək üçün bir yadigardır. Gəlin yadigarları tapıb əbədiləşdirək. Bilmək lazımdır ki, aşıqlıq sənəti xalqımızın keçmişini bu gününü əks etdirən sənətdir, folklor tariximizi yaradan sənətdir.

**P.S.**

***Son olaraq üzümü çox hörmət bəslədiyim, xatirlərini istədiyim Aşıq Novruzun yadigarları, Bakıda yaşayan Bayram və Sadiqə tutaraq öz daxilimdən gələn duyğularımı böyük ədəbiyyatşünas, folklorşünas, məşhur alim M.H.Təhmasibin dəyərli bir fikrini onlara çatdırmaq istəyirəm. "Həyatda elə oğullar olmuş ki, ataları ilə tanınmışlar, elə atalar da olmuş ki, oğulları ilə məşhurlaşmışlar". Məndən inciməyin, əzizlərim! Mən sadəcə Sizə tövsiyə edirəm. Qalanı öz işinizdir. Dəllər kənd qəbiristanlığında rəhmətlik atanız Aşıq Novruzun məzar daşında onun sazı da həkk olunub. Bu alqışa layiqdir. Ancaq mən istərdim ki, onun məzarı yenidən adına layiq bərpa edilsin, aşığa yaraşan bir məzar olsun ki, ora gedənlərin diqqətini cəlb etsin, görənlər də siz oğulları alqışlasınlar. Siz də oğulluq borcunuzu layiqincə yerinə yetirdiyinizə görə dəyərlənəsiniz və el ozanına görə həmişə hörmətlə yad ediləsiniz. Bunun üçün əvvəlcədən rəhmətliklər Aşıq Hüseyn Saraçlının, Aşıq Əmirin, Aşıq Əmirastanın, Aşıq Müslümün məzarlarına baxmaq kifayət edər.***

**Təhməz Abbasov,**
***Filoloq, əmək veretanı.***

# Bu üç adamın pulu dövlətlərin pulundan çoxdur





79,3 milyard dollar… Az məbləğ deyil. Amma məsələ burasındadır ki, bu pul bir nəfərin bacarığı sayəsində qazanılıb. Söhbət dünyanın ən varlı şəxsi Bill Qeytsdən gedir. Məşhur "Forbes" jurnalının apardığı araşdırma nəticəsində 59 yaşlı Bill Qeyts dünyanın ən varlı insanları siyahısında ilk pillədə qərarlaşıb.

Reytinq cədvəlində ikinci yeri meksikalı milyarder Karlos Slim tutub. Onun varidatının Bill Qeytsdən bir qədər az 76,4 milyard dollar olduğu bildirilir. Onu da qeyd edək ki, Karlos Slim yalnız varidatı ilə deyil xeyriyyə əməlləri ilə də daim xəbər mövzusu olmağı bacarıb. O, il ərzində Meksika iqtisadiyyatına və təhsilinə milyonlarla pul xərcləyir.

Üçlüyü məşhur amerikalı investor Uorren Baffetu tamamlayır. Savadlı idarətmə nəticəsində gəlirini günbəgün artıran Uorrenin hazırki varidatı 72,3 milyard dollar təşkil edir.

# Ağ Evdə Azərbaycan rəqsi səsləndi

***Ağ Evdə Novruz bayramı ilə əlaqədar tədbir keçirilib.***

ABŞ prezidenti Barak Obamanın xanımı Mişel Obamanın ev sahibliyi etdiyi mərasimə Novruz bayramını keçirən ölkələrdən nümayəndələr qatılıb. Yığıncaqda Azərbaycan folklorundan "Nəlbəki" rəqsi nümayiş olunub.

M.Obama çıxışında Ağ Evin bütün



mədəniyyətlərin müxtəlifliyini əks etdirməyə çalışdığını deyib və Novruzu onlardan biri adlandırıb. O, Novruz bayramı ilə əlaqədar tədbirə ev sahibliyi etməkdən məmnun olduğunu bildirib.




## Yel çərşənbəsi

*Novruz bayramı ərəfəsində keçirilən Yel çərşənbəsi də yaranış prosesinin üçüncü mərhələsini əks etdirir. Əgər torpaq və su insan yaradılışının materialını, maddi əsasını təşkil edirsə, od və yel bu materialın yaradılmasında kənar vasitəçi statusunda çıxış edir. Belə ki, yaradılışla bağlı dörd ünsür mifində yaradılışın maddi əsası olaraq torpaqla su binar oppozisiyadırsa, bu materialın yaradılışa çevrilməsi prosesinə təkan verən vasitələr kimi, yellə od da binar oppozisiyadadır. Yaradılış mifologiyasında torpaqla suya daha çox statiklik, donuqluq, yellə oda isə dinamiklik, hərəkət xasdır. Bu mənada yel, hava birbaşa ilahi qüvvənin iradəsinin ifadəsi kimi çıxış edir.*




## Torpaq çərşənbəsi

*Sonuncu ilaxır çərşənbə torpaq çərşənbəsidir. Yuxarıda da qeyd etdiyimiz kimi, torpaq insan yaradılışının əsas maddi əsası olmaq etibarilə bu prosesdə son dərəcə əhəmiyyətli bir mövqeyə malikdir. Torpaq müqəddəsliyinin türk mifoloji görüşləri ilə bərabər, etnik-əxlaqi dəyərlər sistemində yurd, vətən, el-oba anlayışı ilə yanaşı, yaradılışın maddi əsası olmasından irəli gələrək sakral mifoloji semantikaya da malikdir. Yazda torpağın oyanmasın mifik kökləri etibarilə dirilmə, canlanma anlayışı ilə əlaqədardır. Bu isə ilk növbədə, insanın yaradılış mifindən qaynaqlanır.*

# Yaz depressiyasından qorunmaq üçün nələrə diqqət edilməlidir?

Fəsil dəyişikliyinin insan orqanizminə, xüsusilə psixologiyasına təsirlərini bilməyimiz vacibdir. Hazırda yazın gəlişini səbirsizliklə gözləyirik, amma mövsüm dəyişikliyi zamanı bəzi insanlarda depressiv hallar müşahidə olunur.




"Yatmaq istəyirəm!", "Yuxudan durmaq səhərlər mənə əziyyət verir!", "Halım yoxdur!", "Hər tərəfim ağrıyır", "İşə getmək istəmirəm!", "Bezdim hər şeydən!"

Bu kimi ifadələri insanların dilindən əsasən mövsüm dəyişikliyi vaxtı eşidirik. Əgər insanlarda belə hallar müşahidə olunursa, depressiyaya düşmək ehtimalı qaçılmazdır.

Həkim bildirib ki, şəkərli diabeti olan xəstələr daha çox diqqət etməlidir: Onun sözlərinə görə, xəstəliklərin qarşısını almaq və immun sistemini gücləndirmək üçün daha çox təmiz havada gəzmək, fiziki işlə məşğul olmaq, qida rasionunda meyvə-tərəvəz, süd və ət məhsullarına üstünlük verilməlidir.

# Google ilk dükanını açdı

***Dünyanın ən böyük internet korporasiyası Google ilk dükanını açıb.***

"Shop in shop" adlanan bu market Britaniya pay-taxtının Tottenhem Kort Roud səmtində yerləşir.

"Currys PC World"da yerləşən marketdə Google korporasiyasının istehsalı olan məhsullar satılır.

Satışdakı məhsullar arasında Google-un istehsalı olan və Android əməliyyat sistemi ilə işləyən smartfonlar, planşetlər, Chromebook noutbukları və s. var.

Hazırda ən çox satılan məhsullar arasında Android əməliyyat sistemi ilə çalışan planşetlərlə Motorola Moto 360 və LG Gwatch R 5 smartfonları lider mövqe tutur.




# Azərbaycanlı yazıçılar haqqında




*Gənc yazar Əhməd Şahidov kitab yazır və 10 min tirajla çap edir. Görür ki alan yoxdu, qəzetə belə bir elan verir: "Gənc və yaraşıqlı milyonçu, Əhməd Şahidovun yeni romanının qəhrəmanına oxşayan qızla tanış olmaq istərdi".*

* * *

*Dünya şöhrətli Azərbaycan yazıçısı, Nobelin bir addımlığında olan Yunus Oğuz Moskvada növbəti kitabını buraxdırır. Həm ticarət, həm ziyarət prinsipi ilə ekzotik heyvanlara tamaşa etmək üçün Moskva zooparkına gedir. Tutuquşuların yanından keçəndə onlardan biri dil-dil ötməyə başlayır:*

*- Lamsa Lamsa Lamsa!*

*Yazıçı düşünür ki, "yaqin məni salamlayır". Xoşuna gəlir, birbaşa gedir zooparkın direktorunun yanına ki, neçəyə olsa, tutuquşunu alsın. Direktor and-aman edir ki, bu, mümkün olan iş deyil. Deyir:*

*- Özünü yox, yumurtalarını ala bilərsiz.*

*Yunus Oğuz razılaşır, yumurtaları alıb Bakıya qayıdır, hərəsini bir dostuna bağışlayır. Onlar da qoyurlar öz toyuqlarının altına. Bir müddət sonra yumurtalardan cücələr çıxmağa başlayır, amma birindən ördək, o birindən hinduşka, bir ayrısından dəvəquşu... Heç bir yumurtadan tutuquşu çıxmır.*

*Yazıçı bir də yolu Moskvaya düşəndə yenə həmin zooparka gedir. Tutuquşu onu görən kimi qarnını tutub gülməyə başlayır.*

*Yunus Oğuz:*

*- Gül, gül, zato ves Bakı sənin fahişə olduğunu bilir.*

# Dünyada ilk dəfə: *yalnız qadınlar üçün*

***Uzunluğu 79,8 metr olan "La Belle" milyonçu qadınlar üçün hazırlanıb.***

"Lidia Bersani Luxury Design" studiyası dünyada ilk dəfə olaraq yalnız qadınlar üçün nəzərdə tutulmuş superyaxta layihəsi hazırlayıb. Uzunluğu 79,8 metr olan "La Belle" adlı yaxta milyonçu qadınlar üçün hazırlanıb. "Swarovski" büllurlarından olan çılçıraqlar, qızıl suyuna çəkilmiş naxışlar və mozaikalar, buzlu fəvvarələri və spa-mərkəzi olan yaxtada 12 sərnişin səyahətə çıxa bilər. Yaxtanın interyeri büllur, qızıl, xəz, bahalı daş-qaşla süslənmiş 5 göyərtədən ibarətdir. Lidiya Bersaninin dediyinə görə, "La Belle" qadın tərəfindən qadınlar üçün hazırlanmış ilk yaxta layihəsidir.



Azərbaycanlıların Mədəniyyət Mərkəzi
Region PRESS
İctimai qəzet
№05 (180) 13.03.2015
Qəzet 2008-ci il martın 15-dən çıxır

**Heç bir dahi rəssam əşyaları olduğu kimi görməyib. Əgər belə olsaydı, o, artıq rəssam olmazdı.**

**Oskar Uayld**

# Hacı Rizvan İsmayılzadə: "Rəssam rənglərlə şeir yazan bəstəkardır"



*Rizvan İsmayılzadə 1969-cu il oktyabrın 24-də Gürcüstanın Bolnisi rayonunun, Zol-Güvəc (Zveli-Kveşi) kəndində dünyaya göz açıb. Orta təhsilini həmin rayonda yerləşən Kazreti qəsəbəsində rus məktəbində alıb.*

*1986-90-cı illərdə Bakı şəhərində Ə. Əzimzadə adına rəssamlıq məktəbinin bədii-tərtibat fakültəsində oxuyaraq tərtibatçı rəssam ixtisasına yiyələnib. 1992-95-ci illərdə isə İranın Qum, Təbriz şəhərlərində ilahiyyat üzrə təhsil alıb. Ara-sıra yaradıcılıqla məşğul olmaqla yanaşı, tərtibat və naqqaşlıq işləri üzərində də çalışıb.*

*2007-ci ildə İstanbul şəhərində "Cəfərilər dərnəyi"nin təşəbbüsü ilə Ramazan ayı boyunca yağlı boya tabloları, müəllifin izahatları ilə yerli televiziya kanallarının birində yayımlanıb. Elə həmin il Marneuli şəhərindəki "Gənclər Mərkəzi"nin rəsm salonunda rəssamın ilk fərdi sərgisi keçirilib.*

*Rəssamın yüzə yaxın yağlı boya və qrafik əsəri var.*

*Rizvan İsmayılzadə 3 uşaq atasıdır. O, "Borçalı qəlbimdir, eşqim Əhli-Beyt" adlı şeirlər, "Gürcüstanda İslam abidələri" adlı tarixi-ensiklopedik iki kitabın müəllifidir.*

*İstər elmin, istərsə də incəsənətin bütün qollarının insanların maddi-mənəvi inkişafına xidmət etməsi yəqin ki, mübahisəli məsələ deyil. Tarix boyu, memarlıq, tətbiqi və toxuculuq sənəti, istərsə də təsviri sənət bəşəriyyətin mənəvi təkamülündə böyük rol oynamışdır. Hər dövrün öz tələbatına cavab verən rəssamlar kimi, müasir dövrün də təsviri sənət ustalarının boynuna ağır vəzifələr düşür. Zamanəmizdə yetərincə rəssamlıq cərəyanları olmasına baxmayaraq, mövcud cəmiyyətin mənəvi müşküllərinin həllində rəssamlıq sənəti tələbatı kifayət qədər ödəyə bilirmi? Onun bu günkü durumu necədir, inkişafı üçün problemlərinin həlli yolları hansılardır? Bu suallara cavab tapmaq üçün Gürcüstanda tanınmış din xadimi, özünün zəngin və cəlbedici yaradıcılığı ilə sənətsevərlərə yaxşı tanış olan Hacı Rizvan İsmayılzadənin yaradıcılıq emalatxanasına baş çəkdik, əsərlərinin bir qismi ilə tanış olduq və bizi maraqlandıran sualları cavablandırmasını xahiş etdik.*

**– Siz tabloları hansı üslubda çəkirsiniz? Başqa sözlə desək, yaradıcılığınızda nəyə daha çox üstünlük verirsiniz?**

– Diqqəti daha çox təsviri sənətin insanların əxlaqi, mənəvi tərbiyəsinə müsbət təsir göstərməsinə yönəltmək istərdim. Çalışıram ki, əsərlərimdə ictimai-siyasi problemlərin həllini hədəf kimi götürüm. Hər bir tablo özünün realist, sürrealist və simvolizm üslublarında öz təsdiqini tapır. Tablolar bu mövzulardan bəhs edir. Mən mövcud üslubların 4-5-i üzrə şəkillər çəkirəm. Gələcəkdə isə öz dəst-xəttimi tapacağıma əminəm. Bunun üçün vaxt və gərgin əmək lazımdır.

**– Azərbaycanda rəsm sənətinin müasir durumu barədə nə deyə bilərsiniz? Klassisizm və müasirlik barədə baxışlarınız maraqlı olardı.**

– Azərbaycan özünün görkəmli rəssamları ilə dünyada məşhurdur. Mikayıl Abdullayev, Tahir Salahov, Hafiz Məmmədov və bir çox başqaları istənilən ölkənin arzulanan sənətkarlarındandır. Tahir Salahov sərt realizm üslubu sahəsində öz üslubunu yaratmışdır. Səttar Bəhlulzadə də impressionizm cərəyanına yaxın üslubda öz dəst-xətti ilə öyünə bilər. Bu gün Cavad Mircavadov və Rasim Babayev adımıza və sənətimizə şərəf gətirən sənətkarlardandır. Cavad Mircavadov, əsərləri Nyu-Yorkun dünyaca məşhur Metropoliten-muzeyinin müasir incəsənət bölümündə daimi sərgilənən yeganə Azərbaycan rəssamıdır. Buradaca artıq şöhrətin zirvəsində dayanan Sakit Məmmədovun adını qeyd etməmək mümkün deyil. O daha çox klassik üslubda, lakin özünəməxsus səpkidə çəkir. Sənət korifeyləri və elita onun yaradıcılığı ilə yaxşı tanışdır...

Son illərdə Azərbaycanda təsviri sənətə dövlət səviyyəsində diqqət və qayğı çoxalıb. Aida Mahmudovanın rəhbərliyi ilə Müasir incəsənəti təbliğ edən "Yarat" Müasir İncəsənət Təşkilatı yaradılıb. Bu təşkilat gənc rəssamların əsərlərini dünyanın müxtəlif ölkələrində keçirilən sərgilərdə nümayiş etdirməyə çalışır. Bu, olduqca təqdirəlayiq haldır. Bakı Müasir İncəsənət Muzeyi isə, deyərdim ki, MDB məkanında ən səviyyəli və geniş imkanlara malik muzeydir...

**– Siz sənətdə nəyi daha çox qiymətləndirirsiniz – formanı yoxsa məzmunu?**

– Daha çox məzmuna dəyər verirəm. Formaya çatmaq üçün uzun vaxt tələb olunur. Bir sözlə, məzmuna, yəni məna dərinliyinə meylliyəm. Fikrimə düşdü, ağlıma gəldi çəkdim – mən bunun qəti əleyhinəyəm. Təsadüfi tabloların olub-olmaması mübahisəlidir. Düşünülmüş, mənaca dərin əsərlər yaradılmalıdır.

Bəziləri belə hesab edir ki, mən yaradıcılığımda klassikaya, bəziləri isə düşünür ki, müasir üsluba üstünlük verirəm. Məncə, bu üslubların ikisi də gözəldir. Ancaq baxış rakursu dəyişməlidir. Biz birinci halda sanki əlində əsa, qarşısında çay olan qocaya, ikinci halda isə müasir dəbdə geyinmiş gəncə tamaşa edirik...

**– Sənətdə, o cümlədən rəssamlıqda milliliyi qorumaq mümkündürmü?**

– Bəli, mümkündür. Biz bunu Rasim Babayevin, Cavad Mircavadovun, Qəyyur Yunusovun və gənc rəssam Faiq Əhmədovun əsərlərində daha bariz şəkildə görürük. Onlar sübut edirlər ki, müasir ənənələrə söykənərək milliliyi qorumaqla əsərlər yaratmaq mümkündür və vacibdir.

**– Sizin əsərlərinizi seyr etdikcə dini mövzuların doğurduğu təəssüratların fəlsəfi tutumlu çalarla çuğlaşdığını görürük.**

– Mən çəkdiyim tablolarda *(istər rəngkarlıq, istər qrafik əsərlərdə də)* dini, əxlaqi, mənəvi və fəlsəfi mövzuları daha aktual hesab edirəm.

**– Gürcüstan azərbaycanlıları arasında rəssamlıq sənəti nə qədər populyardır?**

– Gürcüstan azərbaycanlıları arasında təsviri sənətin inkişafını qənaətbəxş hesab etmək olmaz. Rəssamlıq məktəblərində təhsil



almış şəxslər ruzi arxasınca başqa diyarlara üz tuturlar, qeyri işlərlə məşğul olurlar. Tbilisi Rəssamlıq Akademiyasında təhsil alan cəmi bir azərbaycanlı var. Marneulidəki "Çay Evi"ndə fəaliyyət göstərən rəssamlıq dərnəyində istedadlı gənclər yetişməkdədir. Bu sahədə istedad potensialı yüksəkdir. Təbii ki, istənilən sahə kimi, incəsənətin bu sahəsinə də qayğı və diqqət gərəkdir. Təşkilatlar və İmkanlı şəxslər rəssamların əsərlərini satın almaqla, onların sərgilərini düzənləməklə, kataloqlarını çap etdirməklə onlara həm maddi, həm də mənəvi dəstək göstərməlidirlər.

**– Bildiyimiz qədər, şeirlər də yazırsınız...**

– Yazdığım şeirlərin çoxu dini mövzudadır. Lakin Vətən, torpaq, insanlar haqqında şeirlərə də üstünlük verirəm. 2007-ci ildə "Borçalı qəlbimdir, eşqim – Əhli-Beyt", 2011-ci ildə "Gürcüstanda İslam abidələri" adlı tarixi-dini ensiklopedik kitabım nəşr olunub. Yeni şeirlər kitabım da çapa hazırdır.

**– Sizə yaradıcılıq uğurları diləyərək gələcək planlarınız və gənclərə tövsiyələriniz barədə danışmağınızı xahiş edirik.**

– Gənclərə nə tövsiyə edərdim? Öz milli köklərini dərindən öyrənsinlər. Musiqi, memarlıq, xalçaçılıq tarixi barədə geniş məlumat əldə etsinlər. Bu gerçəkləşərsə, əminəm ki, onlar böyük mənəvi irsin varisi kimi dünya incəsənətinin ən layiqli nümunələrini yaradacaqlar.

Hər şeyin fitrət və batinində, onun mahiyyətində ilahidən gələn mövcudiyyəti anormal yeniliklərlə əvəzləmək sağalmaz fəsadlar törətdiyi artıq getdikcə daha çox büruzə verməyə başlayır. Belə bir vəziyyətdə digər elmi-mədəni sahələr kimi rəssamların da boynuna öz əsərləri ilə cəmiyyəti öz fitrətinə, təbii keçmişinə, uca dəyərlərə qaytarmaq görəvi düşür.



Təsviri sənət bu məsələlərin həllində o qədər böyük əhəmiyyətə malikdir ki, bəzən bir dərin süjetli tablo onlarla kitabın mənalarından daha çox mətləb çatdırmaq iqtidarındadır. Bir elmi hesablamaya görə, bir təsvir mindən çox sözü əvəz edir. İnsanın öz həyatı boyu beyninə topladığı yaddaş bazasının 75 faizi gözləri ilə aldığı təsviri məlumatlardan ibarətdir. Rəssamlıq sənəti görülən sənət olduğuna görə, bəzən bir tablonun bir kitabxana dolusu kitabın çatdıracağı mənanı insanlara aşılaya bildiyi üçün rənglərin haqqını ödəmək lazımdır. Rənglərin vizual dili ən yaxşı qavranan və yadda qalan dildir. Rəssam-rənglərlə şer yazan bəstəkardır.

Tarixə nəzər salsaq dərin dini və fəlsəfi fikirlər əksərən şərqdən qərbə tərəf yayıldığına görə bizim görəvimiz öz dövrümüzdə maddi-mənəvi irsimizi əvvəlcə özümüzə xatırlatmaq, sonra isə digərlərinə çatdırmaqdır. Sivilizasiyaların mərkəzində qərar tapmış görkəmli mədəniyyətin beşiyində dünyaya göz açmış bir xalq kimi şərq və qərb dünyasına öz maarifimizi bir daha yeni tərzdə çatdırmalıyıq. Burada rəssamlarımızın boynuna böyük vəzifələr düşür. Çünki tarix boyu bizim elmi-mənəvi təfəkkürümüz və xəzinəmiz nəsr, şeir və musiqi janrlarında bəşəriyyətə çatdırıldığı üçün (bəzi dini mülahizələrdən törəyən qadağalara görə) rəssamlıq və təsviri sənətimiz natamam qalmış, bu sənətin dili ilə bəşəriyyətə çox az söz deyə bilmişik. Artıq çoxdandır ki, rənglər rəngkarları yeni üslubda yaradıcılığa və dostluğa səsləyir. Rənglər rəssamlardan 16 milyonluq saysız hesabsız çalarları ilə onları zirvələri fəth etməyə çağırır.

2015-ci ilin əvvəlində təşkil olunacaq Şərq müdriklərinin qonaqlığında adlı sərgimdə nümayiş olunacaq tablolar, yuxarıda deyilən mülahizə və tələbatların virtual ifadə və nəticələridir. Təbii ki, hələ çox işlər görmək, daha yüksək təsvir və məna yolları və üslubları axtarmaq lazımdır.

Qarşıda görəcəyim işlərə gəldikdə isə dediyim kimi Allahın rizası ilə Tbilisidə geniş sərgimi keçirmək və kataloqumu nəşr etdirmək istəyirəm. Vaxtdan səmərəli istifadə etməyin yolu onu yaradıcılığa sərf etməkdir. Ən böyük arzum isə Bakıda, İstanbulda, Tehranda fərdi sərgimi təşkil etməkdir.

**– Allah arzunuza çatdırsın.**

– Çox sağ olun.

***Müsahibəni apardı:* Binnət Əlioğlu**

Təsisçi: Azərbaycanlıların Mədəniyyət Mərkəzi (AMM)
AMM-in sədri: Fazil HƏSƏNOV
Redaktor: Binnət ƏLİOĞLU
Məsul katib: İbrahimxəlil
Texniki redaktor: Əkrəm QƏHRƏMANOV
Kompyuter tərtibatçısı: Bahar MƏMMƏDOVA
Redaksiyanın ünvanı: Marneuli şəhəri, Çolokaşvili küç. 3
İndeks: 3000 Tel.: (+995 357) 22 29 29
Faks: (+995 357) 22 57 88
E-mail: regionpress@yahoo.com
Qəzetimizi Facebook səhifəmizdə də oxuya bilərsiniz:
https://www.facebook.com/regionpress.AMM
Qeydiyyat şəhadətnaməsi: 09.09.2004. №43/5 z—9
Fakta və ifadə olunan fikrə görə məsuliyyəti müəlliflər daşıyır.
Qəzet pulsuz yayımlanır.
TİRAJ: 2000